Xalqın qəzeti!
# Xalq qəzeti
№ 128 (30244) 18 iyun 2023-cü il, bazar
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

Azad edilmiş bütün ərazilərdə geniş quruculuq işləri aparılır. Yəni, bu, bir daha onu göstərir ki, biz – o torpaqların sahibləri gəlmişik qurmaq üçün, yaratmaq üçün. Biz cəmi iki il yarım ərzində artıq keçmiş köçkünlərin birinci qrupunu Ağalı kəndinə, Talış kəndinə yerləşdirmişik və üçüncü yaşayış yeri Laçın şəhəri olub.

# Qarabağa Qayıdışa qardaşlıq töhfəsi

## “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında “Avto Lizinq Azərbaycan” MMC-nin açılışı



**İyunun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov Cəbrayıl rayonunda “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında “Avto Lizinq Azərbaycan” MMC-nin açılışında iştirak ediblər.**

İqtisadiyyat naziri Mikayıl Cabbarov görülən işlər barədə məlumat verdi.

Şərqi Zəngəzur iqtisadi rayonunun Arazboyu ərazisinin əsasən düzənlik relyefə və bölgənin cənub istiqamətində giriş qapısı mövqeyinə malik olması “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının fəaliyyəti üçün əlverişli şəraiti təmin edir.

*(ardı 2-ci səhifədə)*

# 2050-ci ilədək Azərbaycanda adambaşına gəlir 40 faiz artacaq




**Azərbaycan sosial-iqtisadi məsələlərə dair konseptual baxışların formaşdırılmasında və dayanıqlı iqtisadi inkişaf hədəflərinə nail olunmasında beynəlxalq təşkilatlarla, xüsusilə də Dünya Bankı ilə əməkdaşlığa və məsləhətləşmələrə önəm verir.**

Bu fikri iyunun 16-da Bakıda Dünya Bankının “Qlobal İqtisadi Perspektivlər” (GEP) hesabatının təqdimatı zamanı iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov səsləndirib. Dünya Bankı ilə ölkəmizin məhsuldar tərəfdaşlığının və bankın dəstəyi ilə həyata keçirilən layihələrin iqtisadi inkişafa xüsusi töhfələr verdiyini vurğulayan nazir müavini GEP hesabatına dair təqdimatın Azərbaycanda ilk dəfə keçirilməsini əlamətdar hadisə kimi dəyərləndirib.

*(ardı 7-ci səhifədə)*

# Şərti sərhədi haylar öz arşınları ilə ölçür



**Ermənistanın törətdiyi 15 iyun hərbi təxribatından sonra Qarabağda yaranmış son durumu İrəvan öz ampluasına uyğun interpretasiya etməyə başlayıb. Xüsusilə Laçın yolunda Həkəri sərhəd keçid məntəqəsində silahlı güllələboran həm Ermənistandakı radikal-revanşist qüvvələrin, həm də Qarabağdakı separatçıların əlinə Bakıya qarşı istifadə etməyə əlavə “arqumentlər” verib. Amma bu dəfə məlum qüvvələr hücum obyektləri kimi təkcə Moskvanı deyil, Vaşinqtonu da hədəfə götürüblər.**

*(ardı 4-cü səhifədə)*

# İrəvanın Roma statutu sınağı – Qərb yolunda qətiyyət, yoxsa Rusiya qorxusu




**Ermənistan parlamenti yaxın vaxtlarda Roma statunu ratifikasiya edə bilər. Amma etməməsi də mümkündür. Hər bir halda sənədin ölkənin ali qanunverici orqanına göndərilməsi gözlənilir. Bu barədə məlumatı Ermənistanın Nazirlər Kabinetinin ictimaiyyətlə əlaqələr və informasiya idarəsinin rəisi Armen Xaçatryan verib.**

Qeyd edək ki, bu il martın 24-də Ermənistanın Konstitusiya Məhkəməsi Beynəlxalq Cinayət Məhkəməsinin əsasını təşkil edən Roma Statutunun konstitusiyaya uyğun olduğunu və hökumətin sazişin ratifikasiyası prosesini davam etdirməsinin mümkünlüyünü açıqlamışdı. Ermənistan konstitusiyasının 116-cı maddəsinə əsasən, parlament beynəlxalq müqavilələri ratifikasiya edir. Bu isə o deməkdir ki, Roma statutu ali qanunverici orqanın təsdiqi olmadan qüvvəyə minə bilməz.

*(ardı 5-ci səhifədə)*

# 907-ci düzəliş, Arazdəyəndə zavod və ABŞ-dakı “Rubin çubuğu”

**ABŞ-dakı ermənipərəstlər hərəkətə gəliblər. Görünür, Ermənistanın silahlı qüvvələrinin Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd ərazidəki mövqelərindən ordumuzun hərbi birləşmələrinə qarşı təxribatı səbəbsiz deyilmiş. Söhbət Arazdəyən kəndi istiqamətindəki təxribatdan gedir. O kənddən ki, orada Ermənistan tərəfindən metallurgiya zavodunun inşası planlaşdırılır. Nəzərə alaq ki, bu işi ABŞ şirkətinin həyata keçirməsi nəzərdə tutulur. Birləşmiş Ştatlardakı erməni lobbisi isə hərəkətə İrəvan təxribata görə Azərbaycanı günahlandırdıqdan sonra keçib.**



Qeyd edək ki, bir müddət əvvəl ölkəmizin qeyri-hökumət təşkilatlarının təmsilçiləri bəyanat yayaraq, Arazdəyəndə metallurgiya zavodunun inşasına etirazlarını bildirmiş və vurğulamışdılar ki, zavodun tullantılarının Araz çayına axıdılması regiondakı ekoloji tarazlığı pozacaq. Deməli, Ermənistanın təxribatının məqsədi beynəlxalq aləmin diqqətini yayındırmaq, Azərbaycan ictimaiyyətinin bu haqlı etirazının əhəmiyyətini heçə endirməkdir. İndi isə görünür ki, təxribatda həm də ABŞ-ın siyasi dairələrini ölkəmizə qarşı qaldırmaq məqsədi də var imiş.

*(ardı 4-cü səhifədə)*

# Qarabağ və Şərqi Zəngəzurun sənaye zonaları



Səhifə ⇨ 7

# Ukrayna cəbhədə təşəbbüsü ələ keçirir

Səhifə ⇨ 11

# Türkiyənin yeni hədəfləri bəllidir



Səhifə ⇨ 11

# Komandamız III Avropa Oyunlarına hazırdır



Səhifə ⇨ 11

# “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında “Avto Lizinq Azərbaycan” MMC-nin açılışı



Prezident İlham Əliyev və Rəis Rüstəm Minnixanov “Avto Lizinq Azərbaycan” MMC-nin açılışını bildirən rəmzi lenti kəsdilər.

Məlumat verildi ki, Rusiya və Azərbaycan birgə müəssisəsi olan “Avto Lizinq Azərbaycan” MMC tərəfindən “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının 3 hektar ərazisində texniki servis mərkəzi yaradılıb. Mərkəz yük avtomobilləri və kənd təsərrüfatı texnikalarına xidmət göstərilməsi sahəsində hab rolunu oynayacaq. Mərkəzdə işğaldan azad olunmuş ərazilərimizdə istifadə olunan 1500-dək avtomobilə, həmçinin yüklərin daşınmasını həyata keçirəcək tranzit avtomobillərə və digər texnikalara peşəkar xidmət göstəriləcək.



**(əvvəli 1-ci səhifədə)**

Sənaye Parkının logistik imkanlar baxımından əlverişli ərazidə yaradılması investorların diqqətini cəlb edən əsas amillərdən biridir. Park yeni salınan magistral avtomobil və dəmir yollarının üzərində yerləşir ki, bu da ərazidən həmin magistral yollara birbaşa giriş-çıxışı təmin edəcək. Bu avtomobil və dəmir yolları Zəngəzur dəhlizi vasitəsilə Azərbaycandan Türkiyəyə və Türkiyədən Azərbaycana, eləcə də Azərbaycan ərazisindən Rusiyaya yüklərin daşınması üçün yeni əlverişli imkanlar yaradacaq.

Bildirildi ki, bu Sənaye Parkı 200 hektar ərazini əhatə edir. Parkın prioritet istiqamətləri kimi, logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin və sairin təşkili müəyyənləşdirilib. Sənaye Parkında quruculuq işləri mərhələli şəkildə həyata keçirilir. Parkın ərazisi tam olaraq minalardan və hərbi sursatlardan təmizlənib. Sənaye Parkında fəaliyyət göstərəcək işçilərin və sahibkarların rahatlığının təmin edilməsi məqsədilə mobil şəhərcik salınıb.

Ölkəmizdəki digər mövcud sənaye parklarında olduğu kimi, “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında da sahibkarlar üçün əlverişli investisiya mühiti formalaşdırılır. Belə ki, Sənaye Parkının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla (qaz, işıq, su, kanalizasiya, daxili avtomobil və dəmir yolları, fiber-optik və s.) təmin edilir. Eyni zamanda, rezidentlər qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı əlavə dəyər vergisindən və gömrük rüsumlarından azad olunurlar. Bunlarla yanaşı, İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən rezidentlərə hər cür təşkilati dəstək göstərilir.

Mərkəzdə texniki xidmət bloku, təmir emalatxanası, gözləmə zalı, tədris otağı, anbar, portal tipli avtoyuma məntəqəsi və xidməti otaqlar yaradılıb. Texniki təmir emalatxanasında mühərriklərin və digər aqreqatların, elektrik avadanlıqlarının, pnevmatik və hidravlik qurğuların təmiri sahələri, daxili yanma mühərriklərinin yuyulması məntəqəsi fəaliyyət göstərəcək.

Burada, həmçinin mehmanxana, ehtiyat hissələri mağazası və digər xidmət sahələri istifadəyə verilib. Bununla yanaşı, Mərkəzdə mobil təmir və texniki servis briqadaları da fəaliyyət göstərəcək ki, bu da işğaldan azad olunmuş ərazilərimizdə istifadə olunan bütün texnikalara yerində xidmət göstərməyə imkan yaradacaq.

Ümumi investisiya həcmi 10,2 milyon manat olan müəssisənin inşasına artıq 9,4 milyon manatdan çox investisiya yatırılıb. Müəssisənin fəaliyyətə başlaması məşğulluğun təmin edilməsinə də töhfə verəcək.

# Zəngilan Beynəlxalq Hava Limanında qarşılanma

**Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov iyunun 17-də Azərbaycan Respublikasına səfərə gəlib.**



Zəngilan Beynəlxalq Hava Limanında Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanovu Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu və digər rəsmi şəxslər qarşıladılar.

# Tatarıstanın Rəisinə Şərqi Zəngəzur iqtisadi rayonunda görülən işlər barədə məlumat verilib



**İyunun 17-də Azərbaycan Respublikasına səfərə gələn Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanova Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında görülən işlər barədə məlumat verilib.**

Şərqi Zəngəzur iqtisadi rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında görülmüş işlər barədə təqdimatla çıxış edib.

Tatarıstanın Rəisinə əvvəlcə Zəngilan Beynəlxalq Hava Limanı barədə məlumat verilib. Bildirilib ki, 2022-ci il oktyabrın 20-də Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə hava limanının açılışı olub. Hava limanı bütün növ təyyarələri, o cümlədən genişgövdəli ağır yük təyyarələrini qəbul etmək imkanına malikdir. Müasir tələblərə cavab verən beynəlxalq aeroportun terminalı saatda 200 sərnişinə xidmət göstərə bilər.

Qeyd olunub ki, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının ümumi ərazisi 2580 kvadratkilometrdir. Bu rayonlardan olan keçmiş məcburi köçkünlərin sayı 152 min 200 nəfərdir. Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı prosesinə start verilib. Hazırda 86 ailədən ibarət 420 nəfər Zəngilanın Ağalı kəndinə qayıdıb və orada yaşayır. Ümumilikdə 2022-2026-cı illərdə Cəbrayıl, Qubadlı və Zəngilan rayon mərkəzlərinin, 5 qəsəbənin, 24 kəndin tikintisi və Böyük Qayıdışın birinci mərhələsində 41 min 277 nəfərin köçürülməsi planlaşdırılır.

Qeyd olunub ki, ərazilərin minalardan təmizlənməsi işi fasiləsiz davam etdirilir. İndiyədək Qubadlı rayonunda 80 min hektar (4,5 faiz), Cəbrayıl rayonunda 105 min hektar (18,3 faiz), Zəngilan rayonunda isə 73 min hektar (9,8 faiz) ərazi minalardan təmizlənib. Bu rayonlarda müvafiq olaraq 3278, 14 min 803 və 2487 mina və partlamamış hərbi sursat aşkarlanıb.

Bildirilib ki, Şərqi Zəngəzur iqtisadi rayonunda ümumi uzunluğu 323 kilometr olan 5 avtomobil yolu, 111,4 kilometr uzunluğunda dəmir yolu inşa olunur. Bundan başqa, burada 4 yarımstansiya, ümumi gücü 42,6 MVt olan 5 Kiçik Su Elektrik Stansiyası, 240 MVt gücündə “Şəfəq” Günəş Elektrik Stansiyası yaradılır.

Tatarıstanın Rəisi Rüstəm Minnixanova “Araz Vadisi İqtisadi zonası” Sənaye Parkında görülən işlər barədə də məlumat verildi. Bildirildi ki, 200 hektar ərazini əhatə edən Sənaye Parkına sahibkarlar tərəfindən böyük maraq göstərilir. Artıq 5 sahibkarlıq subyekti Parkın rezidenti kimi, 1 sahibkarlıq subyekti isə qeyri-rezident kimi qeydiyyata alınıb. Bu layihələrin reallaşması nəticəsində, ümumilikdə Sənaye Parkına 32,7 milyon manat investisiya yatırılacaq.

# Tatarıstan və Azərbaycan xalqları əsrlər boyu qardaşlıq, dostluq münasibətləri saxlayırlar



**İyunun 17-də Zəngilan rayonunun Ağalı kəndində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ilə görüşü olub.**

**Tatarıstan Respublikasının Rəisini salamlayan Prezident İlham Əliyev dedi:**

– Hörmətli Rüstəm Nurqaliyeviç, bir daha xoş gəlmisiniz. Mən yeni görüşümüzə çox şadam. Əlbəttə, bu gün birgə Mərkəzin açılışı əlamətdar hadisədir. Lakin daha vacibi bizim sizinlə ünsiyyətimizdir. Mən bizim həm Kazanda, həm də Bakıda görüşlərimizi məmnuniyyətlə yada salıram. Şadam ki, Sizinlə müəyyən etdiyimiz hər şey, o cümlədən “Araz Vadisi” Sənaye Parkının birinci obyekti, - bu, qardaş Tatarıstanın obyektidir, - icra olunur. Yəni, biz ərazilərin bərpası işinə belə münasibətə görə çox minnətdarıq. Əlbəttə ki, biz müəyyənləşdirdiyimiz əməkdaşlıq proqramının tam həyata keçəcəyinə ümidvarıq.

Biz burada məsləhətləşmələrə gələn və sonrakı planlar üzrə qərar qəbul edən nümayəndə heyəti ilə artıq fikir mübadiləsi aparmışıq. Əlbəttə, sənaye kooperasiyasında, energetikada, neft-qaz sahəsində perspektivlər böyükdür. Təbii ki, mədəni əməkdaşlıq da çox vacib sahədir. Tatarıstan və Azərbaycan xalqları əsrlər boyu qardaşlıq, dostluq münasibətləri saxlayırlar. Əlbəttə ki, bizim aramızdakı münasibətlər Rusiya və Azərbaycan arasında dostluq, müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi işinə böyük töhfədir və bizim dövlətlərarası səviyyədə planlaşdırdığımız, həyata keçirdiyimiz hər bir məsələ kimi çox səmərəli, dinamik şəkildə inkişaf edir.

Beləliklə, bir daha xoş gəlmisiniz. Sizə burada - həm Cəbrayılda və Zəngilanda, həm də sabah Bakıda xoş səfər arzulayıram.

***

**Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov dedi:**

– Hörmətli İlham Heydər oğlu, hər şeydən əvvəl gözəl ölkədə olmaq imkanına, Sizin dəvətinizə görə təşəkkür etmək və əlbəttə, Sizə - Azərbaycan Prezidentinə və bizim Prezidentə minnətdarlığımı bildirmək istərdim. Biz ölkələrimiz arasında münasibətlərin möhkəmləndirilməsinə regional səviyyədə də ciddi töhfə veririk.

Tatarlara və azərbaycanlılara gəlincə, biz dil baxımından da tarixən çox yaxınıq. Siz bu qəsəbədəki vətəndaşlarınızla danışırsınız və mən praktik olaraq hər şeyi başa düşürəm. Əlbəttə, bu gün biz tikintisi davam edən məsciddə olduq. Bütün bunlar bizə çox yaxındır və bütün bunlar bizi çox yaxınlaşdırır. Bizim birinci Prezidentimiz Mintimer Şaymiyev, onun və Tatarıstanın yaxın dostu Heydər Əliyev münasibətlərimizin möhkəm təməlini qoyublar.

# Azərbaycan Prezidenti İlham Əliyev və Tatarıstanın Rəisi Rüstəm Minnixanov Ağalı kəndində olublar





**İyunun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov Zəngilan rayonunun Ağalı kəndində olublar.**

Prezident İlham Əliyev və Rüstəm Minnixanov elektromobillərlə Ağalı kəndini gəzdilər.

Qeyd edək ki, bugünədək Böyük Qayıdış çərçivəsində Zəngilanın Ağalı kəndinə ümumilikdə 86 ailə - 420 nəfər köçürülüb. Ağalıda məskunlaşan sakinlər yüksəkkeyfiyyətli, “ağıllı” texnologiyalarla təchiz edilmiş evlərlə təmin olunublar.

Müvafiq qurumlar tərəfindən sakinlər peşə ixtisaslarına və bacarıqlarına uyğun şəkildə işlə təmin ediliblər. Onlar müxtəlif dövlət qurumlarında, ictimai iaşə obyektlərində, tikinti şirkətlərində, tikiş fabrikində və sair çalışırlar. Köçürülmüş əhali üçün bütün infrastruktur yaradılıb.

Prezident İlham Əliyev və Rüstəm Minnixanov Ağalı sakinləri ilə görüşüb söhbət etdilər.

**Prezident İlham Əliyev:** Salam əleyküm.

**Sakinlər:** Salaməleyküm, cənab Prezident, xoş gəlmisiniz.

**Rüstəm Minnixanov:** Salam əleyküm.

**Sakinlər:** Xoş gəlmisiniz, cənab Prezident.

**Qadın sakin:** Həmişə Siz gələsiniz, xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Necəsiniz? Necə yaşayırsınız?

**Sakinlər:** Sağ olun, cənab Prezident, Allah Sizə ömür versin. Biz yaxşıyıq, Sizin sayənizdə hər şey yaxşıdır, əladır. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə kömək etsin. Biz Sizin sayənizdə burada yaşayırıq. Allah Sizə cansağlığı versin.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakinlər:** Sağ olun, cənab Prezident. Allah Sizi qorusun!

**Prezident İlham Əliyev:** Salam, necəsən? Qızım, sən də gəl.

**Qadın:** Salam, xoş gəlmisiniz. Gəlin, uşaqlar, şəkil çəkdirək.

**Prezident İlham Əliyev:** Necə yaşayırsınız burada?

**Qadın:** Mən Bakıdan gəlmişəm.

**Prezident İlham Əliyev:** Qonaq gəlmisiniz?

**Qadın:** Bəli, qonaq gəlmişik.

**Minnixanov (balaca qıza):** Adın nədir?

**Qız:** Xədicə.

**Prezident İlham Əliyev:** Bəs sənin adın nədir?

**Oğlan:** Yusif.

**Prezident İlham Əliyev:** Nəvələrinizdir. Sənin adın nədir?

**Qız:** Mələk.

**Prezident İlham Əliyev:** Necəsən?

**Qız:** Yaxşıyam.

**Qadın sakin:** Cənab Prezident, Ağalıya xoş gəlmisiniz. Allah Sizə kömək olsun.

**Digər qadın:** Cənab Prezident, bu gün bu qızın ad günüdür, onunla bir şəkil çəkdirərsiniz?

**Prezident İlham Əliyev:** Ad günüdür? Təbrik edirəm.

**Qadın:** Allah Sizin canınızı sağ etsin ki, bizə bu günləri qismət etdiniz.

**Digər Qadın:** Cənab Prezident, Sizə dərin təşəkkürümüzü bildiririk. Sizinlə dəfələrlə görüşmüşük, yəqin tanımış olarsınız.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Bəli, bəli.

**Qadın:** Ağalıya xoş gəlmisiniz, həmişə Siz gələsiniz. Siz gələndə biz çox sevinirik. Görürsünüz, Sizi uşaqlar da nə qədər çox istəyirlər.

**Sakinlər.** Allah Sizi var eləsin. Sizinlə fəxr edirik. Bizim Prezidentimiz dünya lideridir.

**Qadın:** İnşallah, həmişə yolunuz açıq, işiniz uğurlu olsun.

***

Söhbət zamanı xatirə şəkilləri çəkdirildi.

# Tatarıstanın Rəisi Rüstəm Minnixanov Azərbaycan Prezidenti İlham Əliyev ilə birlikdə Zəngilan Beynəlxalq Hava Limanından Bakıya yola düşüblər



*Ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov Azərbaycan Prezidenti İlham Əliyev ilə birlikdə iyunun 17-də Zəngilan Beynəlxalq Hava Limanından Bakıya yola düşüblər.*

***AZƏRTAC***

# Böyük Britaniya və Şimali İrlandiyanın Kralı Əlahəzrət III Çarlza

**Əlahəzrət,**

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Biz Azərbaycan ilə Birləşmiş Krallıq arasında əlaqələrin inkişafına xüsusi əhəmiyyət veririk. Əminəm ki, ölkələrimiz arasında təşəkkül tapmış dostluq münasibətləri, çoxşaxəli əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da möhkəmlənəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, fəaliyyətinizdə uğurlar, Birləşmiş Krallığın dost xalqına daim firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 iyun 2023-cü il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Xalq Cümhuriyyətinin 105-ci ildönümü münasibətilə Tatarıstan Respublikasının sakinləri adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi qəbul edin. Doğma ölkənizin hərtərəfli inkişafı, onun iqtisadi gücünün və beynəlxalq arenada nüfuzunun möhkəmləndirilməsi naminə quruculuq yolunda Sizə, qardaş Azərbaycan xalqına səmimi-qəlbdən daimi uğurlar arzu edirik. Qoy, Azərbaycan dövlətçiliyinin banilərinin ideyaları və təcrübəsi bundan sonra da cəmiyyətin birləşməsinə xidmət etsin, ölkə vətəndaşlarını böyük işlərə ruhlandırsın, Azərbaycan Respublikasının inamlı və firavan gələcəyinin formalaşdırılmasında dayaq olsun!

Rusiya-Azərbaycan münasibətləri çərçivəsində Tatarıstan və Azərbaycan arasında hərtərəfli əməkdaşlığın davamlı inkişafına ümid edirik. Bizim konstruktiv qarşılıqlı fəaliyyətimizin nəticələrinin Rusiya və Azərbaycan xalqları arasında əlaqələrin gücləndirilməsinə, bütövlükdə ümumi sülhün möhkəmləndirilməsinə mühüm töhfə olduğuna inanırıq.

Sizə, Sizin yaxınlarınıza və gözəl ölkənizin bütün sakinlərinə möhkəm cansağlığı, xoşbəxtlik arzulayıram.

**Hörmətlə,**

***Rüstəm MİNNİXANOV,***
***Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi,***
***“Rusiya–İslam dünyası” Strateji Baxış Qrupunun sədri***

# Dövlət Neft Fondunun Müşahidə Şurasının iclası



**İyunun 17-də Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) Müşahidə Şurasının iclası keçirilib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, Azərbaycan Respublikasının Baş naziri, ARDNF-in Müşahidə Şurasının sədri Əli Əsədovun sədrliyi ilə keçirilən iclasın gündəliyində Dövlət Neft Fondunun 2022-ci ildə fəaliyyəti haqqında illik hesabatı, maliyyə fəaliyyətinin auditinin nəticələri, 2022-ci il büdcəsinin icrası və fondun 2023-cü il büdcəsinə dəyişikliklərin edilməsi barədə məsələlər ətraflı müzakirə edilib.

İclasda Dövlət Neft Fondunun icraçı direktoru İsrafil Məmmədovun məruzəsi dinlənilib.

Yekunda Dövlət Neft Fondunun 2022-ci ildə fəaliyyəti və büdcəsinin icrasına dair hesabatlarının, 2023-cü il büdcəsinə dəyişikliklərin edilməsi barədə layihənin Azərbaycan Respublikası Prezidentinə təqdim olunması barədə müvafiq qərarlar qəbul olunub.

***“Xalq qəzeti”***

# Dünya Azərbaycanlı Təbiblərinin I Simpoziumunun iştirakçılarına

**Hörmətli simpozium iştirakçıları!**

Sizi xaricdə yaşayan azərbaycanlı həkimlərin birinci simpoziumunun ölkəmizin paytaxtında öz işinə başlaması münasibətilə ürəkdən salamlayır, insanların sağlamlığının qorunması naminə fəaliyyətinizdə hər birinizə müvəffəqiyyətlər arzulayıram.

Bu ilk simpoziumun ümummilli lider Heydər Əliyevin 100 illiyi ilə əlaqədar keçirilən yubiley tədbirləri çərçivəsində təşkili ona dərin rəmzi məna qazandırır. Azərbaycanın səhiyyə infrastrukturunun tamamilə yenilənməsi və müasir əsaslar üzərində qurulması məhz ulu öndərin adı ilə bağlıdır.

Ötən müddətdə uğurla gerçəkləşdirilmiş işlərin davamı olaraq səhiyyənin inkişafı bu gün də dövlətimizin sosial yönümlü siyasətinin prioritetlərindəndir. Respublikamızın regionlarında yeni-yeni diaqnostika mərkəzləri və şəfa ocaqları istifadəyə verilmiş, səhiyyə müəssisələri qabaqcıl texnologiyalara əsaslanan tibbi avadanlıqlarla təchiz edilmiş, əhalinin sosial müdafiəsinin başlıca tərkib hissəsi kimi həyati əhəmiyyətə malik icbari tibbi sığorta tətbiq olunmuşdur. Son illərdə təbabətin aktual məsələlərinə dair beynəlxalq səviyyəli konfrans və görüşlərə ölkəmizin ev sahibliyi etməsi isə Azərbaycan səhiyyəsinin qlobal səhiyyə sisteminə inteqrasiyasına əlverişli zəmin yaratmışdır.

Qürurverici haldır ki, Azərbaycan tibb təhsilinin və elminin yetirdiyi yüzlərlə həmvətənimiz dünyanın müxtəlif guşələrində ən mötəbər klinikalarda çalışır və yüksək peşəkarlıqları ilə seçilərək xalqımızı layiqincə təmsil edirlər. Onlar ölkəmizin hüdudlarından çox-çox uzaqlarda olsalar da, qəlbləri daim doğma Azərbaycanla döyünür. Qırx dörd günlük Vətən müharibəsi zamanı könüllü şəkildə ön cəbhəyə yollanan ağ xalatlı qəhrəmanlarımızın simasında bu, bir daha təsdiqini tapdı.

İştirakçısı olduğunuz simpozium təbabətin ayrı-ayrı sahələrindəki yeniliklərin paylaşılması və xaricdə məskunlaşmış həkim soydaşlarımızın öz nəzəri və təcrübi bilikləri ilə Azərbaycan səhiyyə sisteminin daha da təkmilləşdirilməsi istiqamətində görülən işlərə yüksəkixtisaslı tibbi kadrlarımızla birgə töhfələr verməleri üçün potensial imkanların üzə çıxarılması məqsədi daşıyır.

Ümidvaram ki, simpoziumda tibb elminin çağırışları işığında innovativ metodlardan istifadəni nəzərdə tutan geniş fikir, təcrübə mübadiləsi və dolğun müzakirələr aparılacaq, qarşılıqlı faydalı əməkdaşlığın yeni perspektivləri müəyyən ediləcəkdir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 iyun 2023-cü il**

# Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyasının növbəti iclası



**İyunun 17-də Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyasının növbəti iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, komissiyanın sədri Samir Nuriyev iclası giriş sözü ilə açaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən genişmiqyaslı tədbirlər haqqında ətraflı çıxış edib, həmçinin ötən dövrdə komissiyanın fəaliyyəti barədə məlumatları diqqətə çatdırıb.

Qeyd olunub ki, Azərbaycan Respublikasının sürətli inkişaf dinamikası fonunda ölkəmizdə korrupsiyaya qarşı effektiv mübarizəni təmin edən və müasir dövrün tələblərinə cavab verən səmərəli mexanizmlər sistemi formalaşıb. Qanunvericilikdə aparılmış dəyişikliklər və həyata keçirilən mütərəqqi institusional islahatlar bu sahədə ixtisaslaşmış nüfuzlu təşkilatlar olan Avropa Şurasına üzv dövlətlərin Korrupsiyaya qarşı Dövlət Qrupu (GRECO) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Antikorrupsiya Şəbəkəsi tərəfindən yüksək qiymətləndirilib.

Komissiya üzvləri ölkəmizdə şəffaflıq və dürüstlüyün daha da gücləndirilməsi istiqamətində görülən işlər fonunda qeyd edilən təşkilatların tövsiyələrinin bu inkişaf prosesinə müsbət təsir göstərəcəyini vurğulayıblar.

Ölkəmizin iqtisadi sistemindən qeyri-qanuni məqsədlər üçün istifadənin yolverilməzliyini qeyd edən iclas iştirakçıları dövlət əmlakının mənimsənilməsi və dövlətin iqtisadi təhlükəsizliyi əleyhinə digər hüquqpozmalarla mübarizə tədbirlərini, habelə bu sahədə aidiyyəti qurumların rolu və onların üzərinə düşən vəzifələri müzakirə ediblər.

İclasda, həmçinin bəzi özəl müəssisələrin fəaliyyətində, xüsusilə mənzil-tikinti kooperativlərində yol verilən korrupsiya hallarının qarşısının alınması və vətəndaşların hüquqlarının qorunması istiqamətində görülmüş işlər barədə məruzələr dinlənilib.

Yekunda komissiyanın növbəti dövr üçün iş planı təsdiq edilib.

# Zəngilan şəhərində görülən işlərlə tanışlıq

**İyunun 17-də Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov Zəngilan şəhərində görülən işlərlə tanış olub.**



Əvvəlcə Rüstəm Minnixanova Zəngilan şəhərindəki Konqres Mərkəzinin tikintisi ilə bağlı məlumat verilib.

Bildirilib ki, Konqres Mərkəzinin layihələndirilən ərazisi 2,2 hektardır. Burada Mərkəzin binası ilə yanaşı, restoran, pavilyon da inşa olunur. Konqres Mərkəzi 605 yerlikdir. Buradakı restoranın isə 240 yerlik olması nəzərdə tutulub. Bu ərazidə müvafiq yaşıllıq zonaları salınacaq, avtomobillər üçün yerüstü parklanma sahəsi yaradılacaq.

Qeyd olunub ki, ekoloji memarlıq konsepsiyasına əsasən Mərkəzin damı yaşıllıq zolağı və günəş panelləri ilə əhatə ediləcək. Konqres Mərkəzində beynəlxalq və ölkə səviyyəli müxtəlif tədbirlər keçiriləcək.

Sonra Tatarıstanın Rəisi Zəngilan məscidinin tikintisi ilə tanış olub.

Bildirilib ki, Zəngilan məscidi “Paşa Holding” MMC-nin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən inşa olunur. Ermənistanın torpaqlarımızı işğal altında saxladığı otuz il ərzində digər ərazilərimizdə olduğu kimi, Zəngilan rayonunda da tarixi, dini, mədəniyyət abidələrimiz vandalizmə məruz qalıb, dağıdılıb, təhqir edilib. İşğal dövründə Zəngilan şəhərindəki məsciddən də tövlə kimi istifadə olunub. Rayonun işğaldan azad edilməsi nəticəsində buradakı tarixi, memarlıq abidələri də erməni əsarətindən qurtulub.

Otuz ilə yaxın işğal dövründə dağıdılan, təhqir olunan dini abidələrimizin, məscidlərimizin yenidən həyata qaytarılması prosesində Heydər Əliyev Fondu müstəsna xidmət göstərir. Qarabağdakı dini abidələrin, məscidlərin bərpası işləri sürətlə davam etdirilir.

Məlumat verilib ki, Zəngilan məscidinin bərpasının təməl daşı dövlətimizin başçısı İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Leyla Əliyevanın iştirakı ilə 2021-ci il aprelin 26-da qoyulub, bərpa işləri fasiləsiz həyata keçirilir.

Tatarıstanın Rəisi Zəngilan şəhərini gəzərək ermənilər tərəfindən törədilmiş dağıntılarla tanış olub.

***AZƏRTAC***

# XİN: Fransa tərəfinin bəyanatı qərəzlidir

**Fransanın Avropa və Xarici İşlər Nazirliyinin mətbuat katibi tərəfindən Azərbaycan-Ermənistan sərhəd bölgəsində baş vermiş təxribatlarla əlaqədar bəyanat bölgədəki mövcud vəziyyəti təhrif edir və qərəzlidir.**

Bu fikir Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Fransanın Avropa və Xarici İşlər Nazirliyinin mətbuat katibi Ann-Kler Lejandrın 16 iyun tarixli bəyanatına dair şərhində yer alıb.

Şərhdə Fransa tərəfinə xatırladılıb ki, Azərbaycan beynəlxalq norma və qaydalara uyğun olaraq təsis etdiyi Laçın dövlət sərhəd-buraxılış məntəqəsindən hər iki istiqamətə yüzlərlə erməni sakininin tənzimlənən şəkildə, sərbəst və təhlükəsiz hərəkətini təmin edib. Bu səylərə baxmayaraq, iyunun 15-də məhz Ermənistan tərəfindən sərhəd-keçid məntəqəsinin atəşə tutulması nəticəsində sərhədçimiz yaralanıb. Hazırda sərhəddən keçid üzrə təhlükəsizlik və istintaq tədbirləri həyata keçirilir.

“Ermənistan tərəfindən Laçında qeyd edilən təxribata və digər istiqamətlərdə ərazilərimizin atəşə tutulmasına baxmayaraq, Fransa tərəfinin məsələyə birtərəfli yanaşması təəssüf doğurur.

Bununla yanaşı, Ermənistanın 2021-ci ildə istehsal etdiyi minaları Azərbaycan ərazisində basdırması da daxil olmaqla mülki əhalini mina təhdidinə məruz qoymasına, 30 ilə yaxın işğal dövründə mülki əhalini daim hədəfə almasına, eləcə də güc yolu ilə qovduğu azərbaycanlıların öz yurd-yuvalarına ləyaqətli və təhlükəsiz şəkildə geri dönməsinə bir sıra təxribatları ilə maneçilik törətməsinə Fransa tərəfinin indiyə qədər heç bir reaksiya verməməsi də sual doğuran məqamlardandır.

Ermənistan tərəfi sülh prosesinə mane olan təhrikçi hərəkətlərə son qoymalı, erməni silahlı qüvvələrini tam olaraq Azərbaycan ərazilərindən çıxarmalı, bölgədə maneəsiz kommunikasiyaların bərpa olunması üzrə öhdəliklərini yerinə yetirməlidir.

Azərbaycan bölgədə sülh, sabitlik və inkişafı təmin etmək, ərazi bütövlüyü və suverenlik kimi beynəlxalq hüquq prinsiplərinə hörmət əsasında Ermənistanla münasibətləri normallaşdırmaq əzmindədir.

***“Xalq qəzeti”***

# 907-ci düzəliş, Arazdəyəndə zavod və ABŞ-dakı “Rubin çubuğu”

## Birləşmiş Ştatlardakı ermənipərəstlər ölkə hakimiyyətini Azərbaycana qarşı qoymaq istəyirlər

*(əvvəli 1-ci səhifədə)*

...Amerika Sahibkarlıq İnstitutu adlanan qurumun baş analitiki Maykl Rubin hərbi insidentə ayrıca məqalə həsr edib. Məqalədə vurğu Azərbaycan hərbi qüvvələrinin guya ABŞ sərmayəsi ilə tikilən zavodu atəşə tutması iddiasına qoyulub. “Azərbaycanın Amerika şirkətinə hücumu sanksiyaların ləğvinə son qoymalıdır” sərlövhəli yazı, adından da göründüyü kimi, Birləşmiş Ştatların vaxtilə ölkəmizə haqsız və ədalətsiz yerə tətbiq etdiyi sanksiyanın bərpasına çağırış ruhludur.

Bəli, sözügedən məqalə başdan-ayağa siyasi motivlidir və onun ermənipərəst dairələr, erməni lobbi və diaspor təşkilatlarının sifarişi ilə qələmə alındığı gün kimi aydındır. Yazının siyasi motivinə iki aspektdən yanaşmaq mümkündür. Birincisi, bildirilir ki, ABŞ Dövlət Departamentinin Azərbaycan və Ermənistan arasında sülh vasitəçiliyinə rəğmən, Bakı silahlı qarşıdurmaya meyillidir və İrəvana hədə-qorxu gəlir ki, burada da başlıca məqsəd, guya, Ermənistanın işğalıdır. İkincisi isə vurğulanır ki, Azərbaycan özünün təcavüz məqsədini gerçəkləşdirmək naminə Qarabağ amilindən bəhanə kimi istifadə edir.

Göründüyü kimi, müəllif kifayət qədər informasiyalıdır və informasiyasını manipulativ formada, ABŞ-ın ictimai rəyinə sırımağa çalışır. Ermənipərəst M.Rubinin məqaləsinin digər məqamları da bunu deməyə əsas verir. Müəllifin yaradıcılığının “kuliminasiya anı” isə onun ABŞ Dövlət Departamentinin tənqidi müstəvisində gündəmə gətirdiyi fikirlərdir.

***

Məqalədə bildirilir ki, Azərbaycanın guya hərbi ambisiyalarının olduğu müddətdə ona yardımın göstərilməsi ABŞ qanunvericiliyinə ziddir. Mövcud xüsusda üzərində dayanılan başlıca məsələ isə “Azadlığa Dəstək Aktı”na 907-ci düzəlişdir. Rubin ABŞ Prezidenti Co Bayden administrasiyasını həmin sənədin tətbiqinin dayandırılmasını ləğv etməyə, yəni Azərbaycana bütün hərbi və qeyri-humanitar yardımları dərhal kəsməyə çağırıb. Ermənipərəst analitikin fikrincə, bunun baş verməməsi prezident Baydenin və dövlət katibi Antoni Blinkenin Amerikanın maraqlarının təminatında, amerikalıların həyatının ölkə qanunlarına uyğun olaraq qorunmasında maraqlı olmadığının göstəricisi kimi qiymətləndirilməlidir.

Qeyd edək ki, son günlər ABŞ-dakı ermənipərəstlərdə məlum 907-ci düzəliş məsələsi ilə bağlı ciddi aktivləşmə də hiss olunmaqdadır. Yada salaq ki, bu ilin martında ABŞ Senatının Xarici əlaqələr komitəsində keçirilmiş dinləmələr zamanı həmin komitənin sədri, ermənipərəst senator Bob Menendez A.Blinkenə Azərbaycanla əlaqəli təxribatçı suallar ünvanlamışdı. Blinken Menendezin Vaşinqtonun Bakıya hərbi yardım göstərməsinin səbəblərini açıqlamışdı. O qeyd etmişdi ki, sülhməramlı missiyalarda iştirak çərçivəsində Azərbaycan Silahlı Qüvvələri ilə NATO arasında qarşılıqlı fəaliyyət gücləndirilib. Blinken ikinci səbəb kimi isə Azərbaycanın İranla uzun sərhədinin mövcudluğunu və onu qorumağın vacibliyini bildirmişdi.



Onu da deyək ki, 1992-ci ildə erməni lobbisinin təşəbbüsü ilə ABŞ Konqresi tərəfindən "Azadlığa Dəstək Aktı”na qəbul olunmuş 907-ci düzəliş Amerikanın Azərbaycana birbaşa dövlət yardımını qadağan edirdi. 2001-ci il 11 Sentyabr hadisələrindən sonra Azərbaycanın beynəlxalq terrorizmlə mübarizədə dəstəyini təmin etmək məqsədilə ABŞ Konqresi Prezidentə düzəlişin hüquqi qüvvəsini dayandırmaq səlahiyyəti verib. O vaxtdan bəri ABŞ-ın dövlət başçıları bu hüquqdan müntəzəm olaraq yararlanırlar. Sonuncu dəfə Dövlət Departamenti 21 iyun 2022-ci ildə düzəlişi dayandırmaq barədə qərar qəbul etmişdi. Bu xəbəri A.Blinken Prezident İlham Əliyevlə telefon danışığı zamanı çatdırmışdı.

Bir məqamı da xüsusi vurğulamaq lazımdır ki, 907-ci düzəlişin bir il daha dondurulması Bayden administrasiyasının post-konflikt dövründə Azərbaycan-Ermənistan arasında davam edən sülh prosesində rol almaq istədiyinin ifadəsidir. Bu məsələ isə qlobal əhəmiyyət daşıyır. Nəzərə alaq ki, Vaşinqton üçün Bakı-İrəvan nizamlamasında yer almaq, eyni zamanda Cənubi Qafqazda Rusiya ilə mövqe və mənafe davası baxımından son dərəcə vacibdir. Elə buradan da aydın görünür ki, Ermənistanın və onun xaricdəki havadarlarının mövcud müstəvidə Azərbaycana qarşı fəaliyyəti nəticə verməyəcəkdir. Yəni Birləşmiş Ştatlar administrasiyası nə bir zavoda, nə də erməni lobbi və diaspor təşkilatları tərəfindən ortaya atılmış yarımçıq analitikin axmaq iddialarına görə Bakıya qarşı çıxacaq deyil. Çünki ortada daha böyük maraqlar var.

***Ə.RÜSTƏMOV,***
***“Xalq qəzeti”***

# Şərti sərhədi haylar öz arşınları ilə ölçür

## Yaxud dalana dirənmiş İrəvanın özündən savayı, hamını günahkar sayması artıq adət halını almaqdadır

*(əvvəli 1-ci səhifədə)*

### Səfirə etirazlarını çatdırdılar

Son 30 ildə belə bir halın baş verdiyini xatırlamırıq. Rusiyanın Ermənistandakı səfiri XİN-ə dəvət edilir və onun diqqətinə ölkə rəhbərliyinin kəskin etirazı çatdırılır. Hayastan mediasının yaydığı məlumatlara görə, Rusiyanın İrəvandakı səfiri Sergey Kopırkinin diplomatiya idarəsinə çağırılması iyunun 15-də Laçın yolunda baş vermiş silahlı insidentlə bağlı olub. İndi səfir Kopırkinin ona bildirilən etiraz fonunda hadisənin başvermə şəraitini aydınlaşdırmalı və vəziyyəti düzəltmək üçün bütün lazımi tədbirləri görməlidir. Yəni Ermənistanın istəyi budur. S.Kopırkin açıqlamasında bəyan edib ki, Rusiya sülhməramlı kontingentinin Qarabağda alternativi yoxdur. Səfirin bu məzmunlu cavabı isə Kremlin İrəvanın addımına etirazıdır.

Xatırladaq ki, Laçın yolundakı Həkəri sərhəd-keçid məntəqəsində bayrağımızı qaldıran Azərbaycan sərhədçilərini müşayiət edən rus sülhməramlıları da ermənilər tərəfindən atəşə tutulmuşdu.

İrəvanın Moskvaya rəsmi narazılığını Ermənistan ordusunun Baş Qərargah rəisinin sabiq müşaviri Vladimir Poqosyan canlı efirdən belə “tamamlayıb”: “Yaxşı ki, bizimkilər dünən atəş açdılar. Təəssüf ki, kiməsə dəymədi. Gərək bu və ya digər tərəfi təmsil edənlərə güllə dəyəydi. Əgər sülhməramlı qüvvələr tərəfindən bir daha belə təxribat baş verərsə, onlara xəbərdarlıq etdim: sizə qarşı Ermənistan hərbçiləri tərəfindən kifayət qədər ciddi addım atılacaq. Sizə heç kim imkan verməyəcək ki, bizim ərazimizdə düşmənə bayrağını qaldırmağa şərait yaradasınız”.

Yəqin Moskva müharibə “qəhrəmanının” bu xəbərdarlığını mütləq nəzərə alacaq.

### Bayraq kimin ərazisində qaldırılıb?

Rəsmi İrəvan Həkəri postunda Azərbaycan Dövlət Sərhəd Xidmətinin giziri Elşən Rüstəmovun Ermənistan tərəfindən atılan güllə ilə yaralandığı silahlı insidentin guya bizim hərbçimizin hayların ərazisində bayraq sancmasına görə baş verdiyini açıqlayıb. Heç bir araşdırma aparmadan bu bəhanənin elementar məntiqdən məhrum olduğu üzə çıxır. Yəni, bayrağımızın asıldığı ərazinin məhz onlara mənsub olduğunu necə müəyyən ediblər? Əgər sərhədin özü şərtidirsə, onun delimitasiyası və demarkasiyası aparılmayıbsa, həmin koordinatın hansı tərəfdə qaldığı necə ölçülüb? Elə yayılan videokadrlardan aydın görmək olur ki, bayrağımız sərhəd–keçid məntəqəsinin yerləşdiyi Həkəri çayının üzərindəki körpünün girişində qaldırılır. Əlbəttə, bu bəhanəni uyduran hayların niyyəti başqadır. Məsələ ondadır ki, aprelin 23-də Azərbaycan-Ermənistan sərhədində fəaliyyətə başlayan Laçın nəzarət-yoxlama postundan getdikcə daha çox erməni istifadə etməkdə idi. Bu isə onun legitimliyinin Qarabağdakı erməni əhali tərəfindən qəbul edildiyinin sübutudur. Eyni zamanda bu, erməni əsilli Azərbaycan sakinlərinin reinteqrasiyasının sürətlənəcəyindən xəbər verirdi.

“Ermənistana, sadəcə, siyasi iradə lazımdır ki, artıq rəsmən elan etdiklərini - Qarabağın Azərbaycan olduğunu kağıza köçürsünlər”. Bu sözləri Prezident İlham Əliyev iyunun 15-də Bakıda rəsmi səfərdə olan Pakistanın Baş naziri Şahbaz Şəriflə birgə mətbuata açıqlamasında da söyləyib. Dövlətimizin başçısı çıxışında sülh sazişinin imzalanması üçün perspektivlərin olduğunu da söyləyib. Aydın məsələdir ki, rəsmi İrəvan və Qarabağdakı separatçılar onlara verilmiş bu sonuncu fürsəti düzgün dəyərləndirsələr, sülh müqaviləsinin imzalanması da tezliklə reallaşar.

### Paris yenə suyu bulandırır

“Ermənistan tərəfi sülh prosesinə mane olan təhrikçi hərəkətlərə son qoymalı, özünün silahlı qüvvələrini tam olaraq Azərbaycan ərazilərindən çıxarmalı, bölgədə maneəsiz kommunikasiyaların bərpa olunması üzrə öhdəliklərini yerinə yetirməlidir”. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Fransanın Avropa və Xarici İşlər Nazirliyinin mətbuat katibi Ann-Kler Lejandrın iyunun 16-da səsləndirdiyi bəyanatına dair şərhində bildirilib. XİN rəsmisi onu da vurğulayıb ki, Azərbaycan bölgədə sülh, sabitlik və inkişafı təmin etmək, ərazi bütövlüyü və suverenlik kimi beynəlxalq hüquq prinsiplərinə hörmət əsasında Ermənistanla münasibətləri normallaşdırmaq əzmindədir.

Cənubi Qafqaza hər vasitə ilə müdaxilə etməyə çalışan, bununla da sülh prosesinə əngəl yaradan Paris artıq Rusiyaya qarşı müəyyən iddialar irəli sürməyə başlayıb. O, bununla kifayətlənməyib, Kremli öz həyati əhəmiyyətli maraqlar zonasından, o cümlədən Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq istiqamətində səylər göstərir. Parisin belə “səyləri” bu gün Cənubi Qafqazda sülhü, əmin-amanlığı, kommunikasiyaların açılmasını, bölgənin tərəqqisini arzulayan ölkələrə qarşı açıq düşmənçilik xarakteri almaqdadır. 44 günlük müharibənin gedişində bütün təxribatçı müdaxilə cəhdləri fiaskoya uğrayan Fransa yenə suyu bulandırmaqla məşğuldur. Amma faydası yoxdur, çünki dünyanın müstəmləkəçi müsyölərdən çəkindiyi dövr çoxdan geridə qalıb.



### Sülh “arxa bağça”nın qapısını döyür

Birmənalı olaraq söyləyə bilərik ki, Laçın postunda təşkil olunan güllələbaranda əsas məqsəd məntəqədən intensiv istifadə edən Qarabağın erməni sakinlərində qorxu yaratmaq idi. Bu “əməliyyat planı”nın hazırlanmasının səbəbi isə son günlərdə Qarabağı birdəfəlik tərk edən ermənilərin sayında kəskin artımın müşahidə olunmasıdır. Bölgədən gedən ermənilər rəsmi İrəvanın dil-ağıza qoymadığı yalançı blokadadan deyil, separatçıların qurduğu xunta rejimindən bezniblər. Əslində Qarabağa sülhün gəlməsində ən böyük maneə məhz buradakı silahlı daşnak tör-töküntüsü, bir də onları hələ də himayə edən Kremldir. Artıq gizlədilməsi mümkün olmayan bu çılpaq həqiqəti avropalı sülh vasitəçiləri kimi, danışıqların okeanın o üzündəki əsas moderatoru Vaşinqton da anlayıb. Bir həqiqət də ondan ibarətdir ki, ermənilərin Qarabağı tərk etmələrinə görə separatçılardan daha çox Rusiya narahatdır. Kremlin bu narahatlığının səbəbi ermənilərə canının yanması deyil, Bakıya qarşı yararlandığı “əsas maşa”nın - daşnak-separatçı quldur dəstəsinin arsenalından silinməsidir. Axı bundan sonra özünün “arxa bağçası” saydığı Qarabağda hökm və güc sahibi olaraq qalması üçün bütün rıçaqlar Moskvanın əlindən çıxmış olacaq. Bir də ki, “arxa bağça”nın əsl sahibinin sülhə meyilli, xoşməramlı addımları öz bəhrəsini tezliklə verəcək.

### Hayların ekzistensial fatalizmi

Özünü “DQR”ın insan hüquqları müdafiəçisi adlandıran Geqam Stepanyan adlı birisinin Facebook səhifəsində yazdığı fərziyyə və “arqumentlərinə” diqqət yetirin: “Arsaxa humanitar yüklərin daşınmasının bloklanması humanitar böhranı daha da dərinləşdirir. Altı ay davam edən blokada nəticəsində onsuz da kəskinləşmiş ərzaq çatışmazlığı 120 minlik əhali, o cümlədən 30 min uşaq, 20 min qoca və 9 min əlil üçün ekzistensial təhlükə yaradır”. Əzabkeş maskasını taxıb ah-nalə etməyə, yalanı həqiqət kimi sırımağa adətkar hayların quyruqları qapı arasında qalanda fatalistə dönmələri də varmış. “Ekzistensial təhlükə”dən dəm vuran “ombudsmanın” bundan daha uğurlu diplomatik termin tapmağa yəqin savadı imkan verməyib.

Əhalinin ayrı-ayrı sosial təbəqələrinin onun ümumi sayına nisbətini göstərən elementar statistik rəqəmləri az qala etnik faciə kimi ictimai rəyə dürtməyə çalışan “ombudsmanın” dərrakəsinə heyran qalmamaq olmur. Bu insan haqları üzrə “müvəkkilin” xəstə təxəyyülünə görə, Azərbaycan humanitar böhrandan “Arsax xalqına” qarşı etnik təmizləmə aləti kimi istifadə edəcək.

Mövcud vəziyyət və bütün şərtlər Qarabağdakı ermənilərin Azərbaycan cəmiyyətinə inteqrasiya mərhələsinin çatdığından xəbər verir. Sayı “ombudsmanın” göstərdiyi kimi, 120 min deyil, 40 minə qədər olan toplumun böyük qisminin inteqrasiya tərəfdarı olması barədə ismarıclar da eşidilməkdədir. Onlar artıq başa düşüb və əmin olublar ki, daşnakların Qarabağda xəyal etdikləri status məsələsi siyasi oyunbazlıqdan qeyri heç nə deyilmiş. Ermənistan rəhbərliyi isə indən belə vaxtın onun əleyhinə işlədiyini qəbul etməli və düşünməlidir.

Bütün hallarda İrəvanın 15 iyun təxribatının onun özü üçün arzuolunmaz nəticələrə səbəb olacağı şəksizdir. Necə ki hayların sülhdənqaçmaya yönəlik “taktiki gedişləri” hər dəfə bumeranqa çevrilib öz başlarında çatlayır. Bu dəfə zərbə daha ağır olacaq.

***İmran BƏDİRXANLI,***
***“Xalq qəzeti”***

### *Ekspert rəyi*



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

Laçın yolundakı sərhəd–keçid məntəqəmiz ona görə bağlanıb ki, orada bizim hərbçilərə və Rusiya sülhməramlılarına atəş Ermənistan ərazisindən açılmışdı. Təxribatçılar heç sülhməramlılara da əhəmiyyət vermədilər. İndi o yol yalnız Qarabağ ermənilərinin üzünə bağlı deyil, sülhməramlıların maşın karvanı da o postda gözləməkdədir. Təbii ki, yol açılacaq, amma Rusiya sülhməramlıları bu təxribata görə ermənilərə qarşı zəruri tədbirlər görməlidirlər. Eləcə də Azərbaycanın hərbi rəhbərliyinə, Dövlət Sərhəd Xidmətinə bir də belə bir insidentin baş verməyəcəyi barədə təminat verməlidirlər. Düşünürəm ki, məhz bundan sonra məntəqədən keçid qaydasına düşəcək.

O ki qaldı Bakının Qarabağın erməni sakinlərinə yanaşmasına, bunu bəyan etmişik ki, onlar Azərbaycan vətəndaşlığını qəbul edəcəkləri təqdirdə hər şeylə təmin ediləcəklər. Yəni, təbii ki, onlar üçün qaz, elektrik enerjisi, ərzaq, dava-dərman Azərbaycandan göndəriləcək. Amma ona qədər bölgədəki rus sülhməramlıları lazımi izahat işi aparmalı, müvafiq tədbirləri görməlidirlər. O vaxta qədər isə yol hamı üçün bağlı qalacaq. Bəli, Qarabağ erməniləri üçün bütün yüklərin daşınmasını və müşayiətini Rusiya sülhməramlıları həyata keçirirdi. Hər bir halda Bakı indi sülhməramlılardan izahat gözləyir.

2023 – Heydər Əliyev İli

# Naxçıvanda unudulmaz görüş



**Ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı üçün tarixi müraciətə imza atmış 91 nəfər ziyalıdan biri böyük şərqşünas, akademik, Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadov olub. Ümummilli lider onun fəaliyyətini hər zaman yüksək qiymətləndirirdi. Təsadüfi deyil ki, 1992-ci ildə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçiriləndə Ziya Bünyadov yeni yaranan partiyanın sədr müavini seçilib.**

Xatırladaq ki, ondan əvvəl – 1991-ci ildə və sonra – 1993-cü ilin mayında da görkəmli akademik ulu öndəri Naxçıvanda ziyarət edib. Əməkdar jurnalist Rəhman Orxanın redaksiyamıza təqdim etdiyi xatirə qeydləri məhz 1991-ci ildə olmuş görüş haqqındadır. Həmin qeydləri oxuculara təqdim edirik:

Bəri başdan deyim ki, ümummilli liderimiz daim akademik Ziya Bünyadova yüksək qiymət verib. Elə ulu öndərdən misal gətirdiyimiz bu sitat da həmin fikri təsdiqləyir: "Ziya Bünyadovun xidmətləri çoxdur və onun ən böyük xidmətlərindən biri də ondan ibarətdir ki, 80-ci illərin axırlarında – 90-cı illərin əvvəllərində o, böyük alim kimi, tədqiqatçı kimi Azərbaycanın açılmamış arxivlərinə bir daha getdi, o arxivlərdən Azərbaycan tarixinin XX əsrə aid səhifələrini açdı, tədqiq etdi, öz kitablarında, dövri mətbuatda yazılar verdi və beləliklə də, əgər əvvəllər Azərbaycan tarixinin orta əsrlərə aid çox mühüm dövrlərini elmi əsərlərində işıqlandırdısa, açdısa, göstərdisə, son illərdə özünü buna həsr etdi. O cümlədən ilk Azərbaycan Demokratik Respublikasının yaranması ərəfəsində gedən prosesləri də, o dövrü də doğru-düzgün tədqiq edənlərdən biri Ziya Bünyadovdur".

...1993-cü il idi. Redaksiyada oturmuşdum. Birdən zəng gəldi. Danışan o idi – akademik Ziya Bünyadov.

– Sizin "Bakinets"i oxuyuram, cəsarətli qəzetdir, – dedi. – Ermənilərı ifşa edən, onların iç üzünü açan yaxşı yazılar, tarixi materiallar verirsiniz. Özümüzünkülərə də sözünüzü deməkdən çəkinmirsiz. Var olun! Belə də davam edin.

Onunla ilk canlı ünsiyyətimiz zamanı isə çox maraqlı bir həmsöhbət kimi xeyli önəmli faktlardan bəhs etdi. Həmin gün Ziya müəllimlə xalqımızın dahi oğlu, böyük xilaskarı Heydər Əliyevlə, onun xalq qarşısında xidmətləri barədə çox geniş söhbətimiz də oldu. Mən "Vışka" qəzetində işləyərkən, ulu öndər Moskvada vəzifədən uzaqlaşdırıldığı vaxtlarda, sonralar isə – AXC-Müsavat hakimiyyətsizliyi, naşı siyasətbazların hökmranlığı dövründə "Bakinets" qəzetində çap olunmuş, Heydər Əliyevə rəğbətimin açıq-aşkar bilindiyi bir-neçə məqaləm barədə Ziya müəllimə məlumat verdim. Sonra qəzetimizin 30 iyun 1993-cü il tarixli nömrəsinin "Он вернулся" başlığı altında Heydər Əliyevin yenidən Azərbaycan rəhbərliyinə qayıtmasını alqışlayan nüsxəsini ona təqdim etdim.

Ziya müəllim vaxtilə – 1981-ci ildə məhz ulu öndərin onu Şərqşünaslıq İnstitutunun direktoru vəzifəsinə təyin etdiyini, lakin sonralar bəzi naqis adamların Heydər Əliyevin onunla münasibətində gərginlik yaratmağa çalışdıqlarını təəssüflə yada saldı. O, ulu öndərin, həqiqətən, dahi və müdrik bir şəxsiyyət, xalqımızın əsl lideri, xilaskarı, doğma Azərbaycanımızı bütün varlığı ilə sevən böyük bir vətənpərvər olduğunu söylədi.

Ziya müəllim Heydər Əliyevlə 1991-ci ilin mayında Naxçıvandakı görüşündən səmimiyyət və nostalji duyğularla söhbət açaraq, dahi rəhbərin geniş, humanist bir qəlbə malik olduğunu diqqətə çatdırdı.

– Mən həmin il mayın 6-dan Naxçıvanda idim, – deyən akademik maraqlı bir əhvalat danışdı. – Bəzilərinin hansı məqsədləsə bizim aramızı vurmağa çalışmasına və bəzən də buna nail olmalarına baxmayaraq, mayın 7-də Naxçıvan Ali Məclisinə gedərək, onunla görüşmək istədim. Referentindən xahiş etdim ki, mənim gəlişim barədə Heydər Əliyevə məlumat versin. Düzü, məni qəbul etməyəcəyinə, ordan məyus qayıdacağıma da hazır idim. Referent içəri keçdi və mən onun cavabını gözləyirdim ki, birdən qapılar taybatay açıldı. Gözlədiyimin əksinə olaraq, Heydər Əliyev qollarını geniş açaraq, məni bərk-bərk qucaqladı və ehtiramla kabinetinə dəvət etdi. Xeyli söhbətimiz oldu. Dedi ki, Ziya müəllim, mən bura bir çoxlarının – bir vaxtlar vəzifə, səlahiyyət verdiyim nankor adamların mənimlə görüşə gələcəklərini güman etsəm də, Sizin gələ biləcəyinizi qətiyyən gözləmirdim, heç düşünmürdüm də. Mənim üçün gözəl bir sürpriz etdiniz. Çox sağ olun ki, məni yad edib gəldiniz, görüşdük.

Ulu öndər Ziya müəllimin vəziyyəti, rəhbəri olduğu Şərqşünaslıq İnstitutunun fəaliyyəti ilə, Naxçıvanda neçə gün qalacağı ilə maraqlanmış və onun ertəsi gün Bakıya qayıtmaq istədiyini eşidincə demişdi:

– Elə şey yoxdur, güclə əlimə düşmüsünüz, heç yerə getməyəcəksiniz. Çoxdandır ki, Sizi görmürəm, mənim qonağımsınız. Qələbə gününü – 9 Mayı Sizin iştirakınızla, Muxtar Respublikanın veteranları ilə birgə bayram edəcəyik.

Heydər Əliyevlə birlikdə qeyd olunan həmin 9 May günü, həqiqətən də, həm Ziya Bünyadov üçün, həm də xalqımızın bu igid oğlu, yeganə cəbhəçi–akademik, Sovet İttifaqı Qəhrəmanı, Əməkdar elm xadimi, Azərbaycan və Özbəkistanın bir neçə şəhərlərinin, hətta Almaniyanın Berlin şəhərinin Pankov rayonunun fəxri vətəndaşı olan canlı əfsanə ilə bir cərgədə dayanmağın sevincini yaşayan naxçıvanlı veteranlar üçün əsl və böyük bir bayrama çevrilmişdi. Həmin gün Naxçıvanın müharibə veteranları Heydər Əliyevlə və Ziya Bünyadovla birlikdə olmaqdan xüsusi sevinc duyur, fəxr edirdilər. Çox da geniş olmayan axşam ziyafətində isə ulu öndərin Ziya Bünyadov haqqında, qəhrəman akademikin isə Heydər Əliev barədə söylədikləri xoş fikirlər bayram gecəsinin ən yaddaqalan, unudulmayan epizodları olaraq hər bir veteranın qəlbində silinməz izlər buraxdı…

***Rəhman ORXAN,***
***Əməkdar jurnalist***

# Dünya Azərbaycanlı Təbiblərinin I Simpoziumu

**Bakıda Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) təşkilatçılığı ilə ilk dəfə olaraq Dünya Azərbaycanlı Təbiblərin Simpoziumu keçirilir.**





Heydər Əliyev Mərkəzində ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunan simpoziumun təntənəli açılış mərasimində Azərbaycan Respublikasının səhiyyə qurumlarının rəhbərləri, nazirlər, xaricdə yaşayan və çalışan həkimlər, Azərbaycanda fəaliyyət göstərən beynəlxalq təşkilatların və səfirliklərin nümayəndələri, tanınmış həkimlər, özəl və dövlət tibb müəssisələrinin direktorları və digərləri iştirak ediblər.

Əvvəlcə TƏBİB və Azərbaycan Televiziyasının birgə ərsəyə gətirdiyi və Ulu Öndər Heydər Əliyevin səhiyyənin inkişafındakı roluna həsr edilən film nümayiş olunub.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspora, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin müraciətini Dünya Azərbaycanlı Təbiblərinin I Simpoziumu iştirakçılarına çatdırıb.

Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev belə böyükmiqyaslı tədbirin keçirilməsinin və müstəqil Azərbaycan səhiyyəsinin memarı Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmasının önəmini vurğulayıb. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri Zaur Əliyev səhiyyənin yeni maliyyələşmə mexanizmi olan icbari tibbi sığortanın ölkə üzrə tətbiqinin əhalinin tibbi xidmətlərə çıxışını asanlaşdırdığını, vətəndaşların səhiyyə sistemindən məmnunluq səviyyəsini artırdığını söyləyib. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) icraçı direktoru Vüqar Qurbanov isə son illərdə tibb sahəsində görülən işlərlə bağlı ətraflı məlumat verib.

Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov,

Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov, Tibb Universitetinin rektoru Gəray Gəraybəyli dünyanın müxtəlif ölkələrində çalışan həkimlərlə yanaşı, Azərbaycanda fəaliyyət göstərən tibb kadrlarını bir araya gətirən belə böyükmiqyaslı bir tədbirin keçirilməsinin əhəmiyyətindən bəhs ediblər.

Almaniyanın Haydelberq Universitetinin Manhaym Tibb fakültəsinin Cərrahiyyə klinikasının həkimi, cərrah-onkoloq, tibb üzrə fəlsəfə doktoru, dosent Vüqar Yaqublu , İstanbul Liv Hospitalının Beynəlxalq Xəstə xidmətləri qrupunun həkimi Tural Xaspolad dünyada tibb sahəsində gedən müasir yanaşmalar və tendensiyalardan danışıblar.

Simpozium iyunun 22-nə kimi davam edəcək.

***"Xalq qəzeti"***

# Ulu öndərin təbiət sevgisi və ona qayğısı

**Lənkəranda ekoloq-jurnalist Bəxtiyar Hüseynovun ulu öndərin 100 illiyinə həsr etdiyi "Heydər Əliyev və Azərbaycan təbiəti" kitabının təqdimetmə mərasimi keçirilib.**

Ədliyyə Nazirliyi Cənub Regional İdarəsinin və Azərbaycan Yazıçılar Birliyi Lənkəran bölməsinin birgə təşkil etdiyi tədbirdə hüquq-mühafizə orqanlarının işçiləri, yaradıcı ziyalılar, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mərasimi giriş sözü ilə açan Azərbaycan Yazıçılar Birliyi Lənkəran şəhər bölməsinin sədri, Prezident mükafatçısı Qafar Cəfərli yeni kitabı ümummilli lider Heydər Əliyevin 100 illiyinə yaradıcılıq töhfəsi kimi dəyərləndirib. O bildirib ki, respublikamızda dahi rəhbərin diqqət yetirmədiyi, qayğı göstərmədiyi bir sahə tapmaq çətindir. Ölkəmizdə yaşanan inqeyd edib.

Çexiya Respublikasının Azərbaycandakı səfiri Milan Sedlaçekinin təbriki də tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Ədliyyə Nazirliyi Cənub Regional İdarəsinin rəisi Taleh Quliyev, Osaküçə kənd sakini, şəhid atası Sübhi Hümmətov, Qızılağac Milli Parkının direktoru Aqil Sucayev, iş adamı Şaiq Həsənov və digər natiqlər ümummilli lider Heydər Əliyevin təbii sərvətlərimizin mühafizəsinə xüsusi önəm verdiyini, dahi şəxsiyyətin rəhbərliyi ilə qəbul edilmiş ekoloji sənədlərin təbiətimizin qorunmasına yönəldiyi-






diki tərəqqi və inkişafın təməli məhz dahi şəxsiyyətin Azərbaycana rəhbərliyi dövründə qoyulub.

Natiq daha sonra ekoloq-jurnalist Bəxtiyar Hüseynovun "Heydər Əliyev və Azərbaycan təbiəti" kitabının ulu öndərin böyük diqqət yetirdiyi sahələrdən biri olan əsrarəngiz Vətən təbiətindən bəhs etdiyini diqqətə çatdırıb. O, eyni zamanda, kitabda dahi rəhbərin təbiət sevgisinin ön plana çəkildiyini və bununla əlaqədar müəllifin öz publisist düşüncələrini oxucularla bölüşdüyünü qeyd edib.

ni bildiriblər. Təbiətə qarşı hər hansı bir qəsdin ulu öndəri çox hiddətləndirdiyini qeyd ediblər: "Mən dəfələrlə demişəm, bir də deyirəm, kim hansı bir sağlam ağacı kəsirsə, hesab edin ki, o, mənim qolumu, barmaqlarımı kəsir.... İnsan qurmalıdır, yaratmalıdır... hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir".

Ulu öndərin bu ibrətamiz fikirləri tədbirdə leytmotiv kimi səslənib.

***Xudaverdi CAVADOV,***
***şair-publisist***

# İrəvanın Roma statutu sınağı – Qərb yolunda qətiyyət, yoxsa Rusiya qorxusu

## *Rusiya prezidenti Ermənistana gəlsə, həbs olunacaq, ya yox?*




*(əvvəli 1-ci səhifədə)*

Konstitusiya Məhkəməsinin qərarından sonra Ermənistan hökumətinin üç ay vaxtı var idi ki, sənədi parlamentə göndərsin. Amma xeyli vaxtdır prosedur icra olunmur. O da məlumdur ki, bir müddət öncəyədək sözügedən konvensiya ilə bağlı ölkənin rəsmi qurumlarının da yekdil mövqeyi yox idi. Ola bilər, hazırda yekun qərar var.

Onu da qeyd edək ki, haqqında söz açılan məsələ xeyli dərəcədə mübahisəli və ziddiyyətlidir. Çünki bir tərəfdən ölkə daxilində baş nazir Nikol Paşinyana qarşı çıxan qüvvələr bildirirlər ki, Roma statutunun ratifikasiyası Rusiya ilə onsuz da xoş təsir bağışlamayan münasibətlərin daha da pisləşməsinə gətirib çıxaracaq. İkincisi, ən əsası isə sənəd Ermənistana daxil olacağı təqdirdə, Rusiya Prezidenti Vladimir Putinin həbsini nəzərdə tutur. İndi sual yaranır: Ermənistan parlamenti Roma statutunu ratifikasiya edəcəkmi?

Yeri gəlmişkən, bir ara Ermənistan hökumətinin Roma statutunun ratifikasiyası prosesini dondura biləcəyinə dair xəbərlər də yayılmışdı. Bu barədə aprel ayında yerli "Qraparak" qəzeti yazmışdı. Nəşr öz mənbələrinə istinadən bildirmişdi ki, hələ indiyə qədər Ermənistan rəhbərliyi rəsmi Moskvanı Roma statutunun ratifikasiyasının Rusiya hökumətinə və prezident V.Putinə qarşı yönəlmədiyinə inandıra bilməyib.

Bu yerdə Rusiyanın Xarici İşlər Nazirliyinin İrəvanın sözügedən konvensiyaya qoşulmaq niyyətinin Moskva üçün qəbuledilməzliyini açıqladığını da yada salaq. Eyni zamanda, Ermənistan parlamentinin spikeri Alen Simonyanın ratifikasiya məsələsinə bir neçə ay əvvəlki münasibətini də həmçinin. A.Simonyan tələsməyin qeyri-məqbulluğunu bildirərək demişdi ki, bu səmərəsiz addım Rusiyaya münasibətdə yanlış olardı. Deməli, bir sual da yaranır: Ötən müddətdə Qərb dairələri Paşinyan administrasiyasının statutun vacibliyinə, xeyir gətirəcəyinə inandıra bilib, ya yox?

Əslində, Roma statutu ilə bağlı prosesləri incələyərkən, Ermənistan iqtidarı üçün seçim anının yetişdiyini də söyləyə bilərik. Ölkənin yönü onsuz da Qərbədir. Sadəcə, sözügedən sənəd bu istiqamətin, belə demək mümkünsə, qətiyyətlilik sınağıdır. Sənəd, həmçinin, Ermənistanın üzünü yenidən Rusiyaya çevirməyəcəyinin təsdiqlənməsi nöqteyi-nəzərdən də indiqator rolunu oynamaqdadır. Şübhəsiz ki, bu, Qərbin ciddi təminatları ilə mümkündür. Həmin təminatlar varmı? Bu barədə söz açmaq çətindir. Çünki İrəvanin böyük ölçüdə Qərbdən gördüyü sözdə dəstəkdir, başqa heç nə.

Bəli, əgər Ermənistan parlamenti Roma statutunu ratifikasiya etsə, bu o demək olacaq ki, ölkənin Şimala siyasi yolu tamamilə bağlanır. Bəs, etməsə? Belə nəticəyə gələ bilərik ki, o zaman Qərbin baş nazir Nikol Paşinyan hakimiyyətinə etibarı sarsılacaq. Ancaq hər bir halda Ermənistan parlamentinin sənədin ratifikasiyasından yan keçəcəyi daha real görünməkdədir.

Tam mümkündür ki, Paşinyan Qərbdəki dostlarına özünün anlayışla qəbul olunması ilə bağlı xahiş etsin. Nəhayət, Rusiyanın, loru dildə desək, burnunun ucunda olan Ermənistandır, Nikolun qərbli dostları yox. Bəs, o zaman nə üçün Ermənistan Konstitusiya Məhkəməsi sənədi qəbul edərək vəziyyəti dramatikləşdirmişdi? Bu yerdə ölkə hökumətinin aylardır onu parlamentə təqdim etməməsinin, prosesi yubatmasının səbəbləri barədə də söz açmaq ehtiyacı duyulmaqdadır. Məsələ ondadır ki, Roma statutu İrəvan üçün Kremlə bir növ minnət sənədidir. Nikol Putinə təxminən belə demək istəyir: Bax, mənə təzyiq göstərirlər, amma qəbul etmirəm.

Digər tərəfdən, nəzərə alaq ki, N.Paşinyan statut məsələsini aylardır gündəmdə saxlamaqla, ölkəsindəki anti-Rusiya vektorunun nə dərəcədə inkişaf edəcəyini gözləyib. Mövcud kontekstdə Moskvanın erməni mənafeyi kimi meydana çıxan məsələlərə reaksiyasını da nəzərdən keçirib və görüb ki, Rusiya özünün erməni sevdasından daşınmayıb. Yəni, Kreml və ona yaxın dairələr İrəvanın çıxardığı bütün anti-Rusiya oyunlarına rəğmən, səbrli və təmkinli davranıblar. Odur ki, hazırda Ermənistanın şimal qonşusu ilə açıq konfrantasiyaya getmək istəməyəcəyini proqnozlaşdırmaq mümkündür.

Məsələnin başqa tərəfinə də diqqət yetirək. Onsuz da son dövrlər Paşinyan iqtidarı Rusiyaya qarşı çıxmaqdadır. Nikol, faktiki olaraq, Azərbaycan-Ermənistan nizamlamasının Rusiya formatını iflic duruma salıb. Onun Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı müstəvisindəki anti-Rusiya demarşları da adi hal alıb. Yəni, Ermənistan hakimiyyəti onsuz da Moskva ilə ziddiyyətlər baxımından öz boynunu xeyli aşıb. Belə bir durumda Roma statutunun da əlavə olaraq qəbulu, müəyyən mənada "qırmızı xətti" keçmək effekti yaradan məsələdir və bunu Ermənistan hakimiyyəti də gözəl anlamaqdadır.

***Ə.CAHANGİROĞLU,***
***"Xalq qəzeti"***

# "Azərbaycan Qarabağ ermənilərini reinteqrasiya etmək əzmindədir"

**"Azərbaycan Qarabağ bölgəsinin etnik erməni sakinlərini Azərbaycanın siyasi, hüquqi, sosial-iqtisadi mühitinə reinteqrasiya etmək əzmindədir".**

Bu barədə Azərbaycan XİN-in tviter hesabında etdiyi paylaşımda deyilir.

"Azərbaycan Konstitusiyası, tərəfdar çıxdığımız beynəlxalq sənədlər, milli qanunvericiliyimiz buna zəmin yaradır", – deyə məlumatda qeyd olunub.

*Müxbirlərimiz Qarabağdan qayıdıblar*

# Kəlbəcər hərbi hospitalında hər cür şərait yaradılıb




**17 iyun – tibb işçilərinin peşə bayramı günüdür. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 4 iyun 2001-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının sosial inkişafı sahəsində tibb işçilərinin böyük xidmətləri və Azərbaycan Xalq Cümhuriyyətinin ilk Səhiyyə Nazirliyinin 1918-ci il iyunun 17-də yaradılması nəzərə alınaraq hər il 17 iyun Azərbaycan Respublikası tibb işçilərinin peşə bayramı günü kimi qeyd olunur.**

Bu gün Azərbaycan səhiyyəsi özünün yeni inkişaf mərhələsini yaşayır. Prezident İlham Əliyevin diqqət və qayğısı ilə nəinki paytaxt Bakıda, bölgələrdə də müasir tibb mərkəzləri açılır, köhnə tibb ocaqları yenidən bərpa olunaraq müasir avadanlıqlarla təmin olunur. Sevindirici hal budur ki, 3 il öncə Vətən müharibəsində qazandığımız parlaq qələbəmizlə yenidən öz sahibinə qayıdan doğma torpaqlarımızda da iri və müasir səhiyyə müəssisələri açılmaqdadır.

Səhiyyə sisteminin inkişafı, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi və infrastrukturun yeniləşdirilməsi daim diqqət mərkəzindədir. Bu yaxınlarda Prezident İlham Əliyev Kəlbəcərdə hərbi hospitalın açılışında iştirak etmişdi. Kəlbəcər kimi mürəkkəb relyefə malik olan, ən strateji regionlardan sayılan bir ərazidə belə bir hospitalın açılması bütövlükdə Azərbaycan Ordusunun ucqarlarda da fəaliyyətinin davamlılıq və sağlamlıq təminatı baxımından olduqca mühüm addım idi.

Bu günlərdə Müdafiə Nazirliyinin təşkilatçılığı ilə bir qrup jurnalistin Kəlbəcər rayonunun ərazisində yeni istifadəyə verilmiş hərbi hospitala 1 günlük səfəri gerçəkləşdi. Səfərdə qəzetimizin əməkdaşı da iştirak etdi.

Qeyd edək ki, hərbi hospital kifayət qədər böyük, təxminən 3,6 hektar ərazidə salınıb. Sülh dövrü üçün 180 çarpayılıq nəzərdə tutulan bu hərbi hospitalda döyüş vəziyyəti zamanı çarpayı sayını 300-dək artırmaq mümkündür. Hospitalı müşahidə edərkən yeni müasir, tam rəqəmsal, süni intellektə əsaslanan tibbi cihaz və avadanlıqlarla təchiz olunmuş otaqlarla tanış olduq. Bu, bəlkə də Cənubi Qafqazda ən müasir hərbi hospitallardan biridir desək, yanılmarıq. Hərbi hospitalın rəisi tibb xidməti polkovniki Hüseyin Əliyev bildirdi ki, 25 ildir hərbi xidmətdədir və artıq 5-ci hospitaldır ki, ora rəhbərlik edir. Baş həkimin sözlərinə görə, hospitalda poliklinika, terapiya, cərrahiyyə, anesteziologiya-reanimasiya



bölmələrindən ibarət birinci müalicə korpusu, yoluxucu xəstəliklər və dəri xəstəlikləri bölmələrindən ibarət ikinci müalicə korpusu, qərargah binası, eləcə də daimi tibbi oksigen təminatı üçün stansiya, camaşırxana-qazanxana, nəzarət-buraxılış məntəqəsi və yeməkxana fəaliyyət göstərir. Bir sözlə, orada tibbin bugünkü tələblərinə cavab verən şöbələri var. Müasir avadanlıqlarla təmin olunmuş bu hospital bəlkə də respublikada yeganə xəstəxanadır ki, istənilən palatada mərkəzləşdirilmiş oksigen stansiyası mövcuddur və hər bir palataya oksigen paneli qoyulub. Yəni istənilən palatanı reanimasiya və ya əməliyyat otağı etmək mümkündür. Burada ağır əməliyyatlar aparıla bilər, beyin, qarın boşluğu və s.

Şübhəsiz ki, bu yaradılan şəraitə görə biz Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevə minnətdarıq. Burada ixtisaslar üzrə oftalmoloq, otorinolarinqoloq, kardioloq, stomatoloq, nevroloq, psixiatr, fizioterapevt və digər kabinetlər açılıb.

Hazırda hospitalda iki əməliyyat otağı fəaliyyət göstərir. Müalicə korpuslarında hərbi qulluqçulara yüksək səviyyədə tibbi xidmət göstərilməsi, o cümlədən onların müayinə və müalicəsi üçün bütün şərait yaradılıb. Laboratoriya bölməsi ən yüksək standartlara cavab verir. Burada müasir laborator müayinə üsulları tətbiq edilməklə klinik, biokimyəvi və mikrobioloji analizlərin aparılması mümkündür.

Müşahidələrimiz bunu deməyə əsas verir ki, Kəlbəcər hərbi hospitalında Azərbaycan əsgərinin, hərbçisinin sağlamlığını qorumaq üçün hər cür şərait var. Yəni, ucqar region olmasına baxmayaraq, istənilən ani hadisə üçün bütün tələblərə cavab verir. Bura həmçinin bioloji təmizləmə qurğusu, ehtiyat generator, cərrahi əməliyyatların fasiləsizliyi üçün UPS, mərkəzləşdirilmiş su, istilik və digər kommunikasiya sistemləri ilə tam təchiz olunub.

Bundan əlavə, hərbi hospitalın avtomobil parkında reanimobillər, yolsuzluq şəraitində təxliyə üçün ambulanslar, çöl şəraitində hərbi qulluqçulara tibbi xidmət göstərilməsi üçün avtomobilləri də müşahidə etdik. Hərbi hospitalın ətrafındakı ərazidə yaşıllaşdırma və abadlıq işləri də çox yüksək səviyyədədir.

Beləliklə, hərbi hospitaldan yüksək təəssüratlarla ayrıldıq. Ən ağır əməliyyatların aparıla biləcəyi belə bir tibb obyektinin ölkənin ucqarında, düşmənlə sərhəd bölgədə ərsəyə gətirilməsi ortaya çıxan istənilən problemə qarşı da adekvatlıq baxımından vacib əhəmiyyət daşıyır. Belə bir tibb mərkəzi həm istənilən fövqəladə, həm də hərbi vəziyyətdə öz vacibliyini hər zaman göstərə bilmə potensialına malikdir.

Müşahidələrimiz əminliklə bunu deməyə əsas verir ki, bu gün ölkədə səhiyyə sahəsində aparılan islahatlar, Prezident İlham Əliyevin sərəncam və tapşırıqlarına əsasən tikilib istifadəyə verilən, yenidən qurulan tibb ocaqları Azərbaycan səhiyyəsinin inkişafının bu gün ən yüksək səviyyədə davam etdiyini göstərir. Onu da əlavə edək ki, bu kimi hərbi-tibbi mərkəzlərin sürətlə tikilərək istifadəyə verilməsi həm də Azərbaycanın qüdrətinin də əyani təzahürü kimi qiymətləndirilməlidir.

*Anar ƏLİ, "Xalq qəzeti"*
*Bakı–Kəlbəcər–Bakı*

# Xocavənddə əsgərlərə yüksək tibbi xidmət göstərilir

**Son illərdə Azərbaycanda ölkə rəhbərliyinin diqqət və qayğısı ilə ordu quruculuğu sahəsində şəxsi heyətin xidməti, sosial-məişət şəraitinin yaxşılaşdırılması, eləcə də sağlamlıqlarının qorunması istiqamətində inamlı islahatlar həyata keçirilir, Azərbaycan Ordusunun maddi-texniki təminatı gündən-günə gücləndirilir, möhkəmləndirilir, müasir standartlara cavab verən hərbi infrastruktur qurulur.**

Azərbaycanda səhiyyə işçilərinin peşə bayramı ərəfəsində Müdafiə Nazirliyinin Xocavənd rayonu ərazisində yeni istifadəyə verilən hərbi hospitalında olduq. 250 çarpayılıq hərbi hospital 4 hektara yaxın ərazini əhatə edir. Burada qərargah, birmərtəbəli patoloji anatomiya, daimi oksigen təminatı üçün oksigen və transformator binaları, eləcə də su, ərzaq və əşya anbarları, əsgər yeməkxanası, hamam-camaşırxana-qazanxana kompleksi, avtopark, nəzarət-buraxılış məntəqəsi inşa edilib. Ərazidə yaşıllaşdırma işləri aparılıb, abadlıq işləri görülüb, asfalt örtüyü salınıb.

Hərbi hospitalda üçmərtəbəli müalicə-diaqnostika korpusu da tikilib. Korpusda qan bankı, laboratoriyalar, müalicə palataları, əməliyyat otaqları, altı nəfərlik reanimasiya palatası, cərrahiyyə və əməliyyat blokları, tibbi ləvazimatlar anbarı, qəbul bölməsi, xəstələr üçün qida qəbulu zalları, aptek, stomatologiya, oftalmologiya, yuma-dezinfeksiya, LOR, terapiya, rentgen və kompüter tomoqrafiyası, endoskopiya, dermatologiya bölmə və kabinetləri yaradılıb. Dünyanın inkişaf etmiş ölkələrində istehsal edilmiş müasir tibbi avadanlıqlarla təchiz olunmuş palatalarda hərbi qulluqçulara yüksək səviyyədə səhiyyə xidməti göstərilməsi, eləcə də onların müalicəsi üçün hər cür şərait mövcuddur.

Hospital bioloji təmizləmə qurğusu, cərrahiyyə əməliyyatlarının fasiləsiz təminatı üçün UPS sistemi, ehtiyat generator qurğusu, su, istilik və digər kommunikasiya sistemləri ilə də təmin olunub. Həmçinin, təxirəsalınmaz tibbi yardım göstərilməsi məqsədilə təxliyə üçün hospitalın ərazisində helikopter meydançası salınıb. Bundan başqa, ağır xəstələri təcili və qısa müddətdə digər müalicə müəssisələrinə çatdırmaq üçün də hospitalın helikopterindən istifadə etmək mümkün olacaq.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti 2022-ci il iyulun 10-da Xocavənd rayonundakı bu hərbi hospitalın açılışında olub. Burada yaradılan şəraitlə tanış olub, müalicə alan hərbi qulluqçular və tibbi personalla görüşüb. Z.Həsənov hərbi hospitalın ərazisində tibbi personal və onların ailə üzvləri üçün hazırlanmış yaşayış binalarının açılış mərasimində iştirak edib.

Müdafiə naziri yeni istifadəyə verilmiş, hər biri 2 və 3 otaqlı mənzillərdən ibarət ikimərtəbəli binaların kommunikasiya xətləri və mərkəzləşdirilmiş istilik sisteminə baxış keçirib. Müasir standartlara cavab verən tam təmirli mənzillərdə mebel və lazımi avadanlıqlar quraşdırılıb. Ərazidə yarımstansiya, su anbarı tikilib, binaların ətrafına asfalt döşənib. Hasara alınmış yaşayış kompleksinin həyətində yaşıllaşdırma və abadlıq işləri görülüb, sakinlərin səmərəli istirahəti üçün lazımi şərait yaradılıb.





Hərbi hospitalın rəisi, tibb xidməti polkovniki İlqar Əliyev bildirdi ki, 44 günlük Vətən müharibəsi nəticəsində ərazilərimizin erməni işğalından azad olunmasından sonra Ali Baş Komandan İlham Əliyevin qayğısı ilə azad olunmuş bölgələrdə yeni hərbi hissələr, hərbi obyektlər inşa edilib və bu proses davam etdirilir: "O cümlədən, Xocavənd rayonunda bu hospital müasir standartlara uyğun yenidən quruldu. Hospitalda yaralı və xəstə hərbi qulluqçulara ixtisaslaşdırılmış tibbi personal tərəfindən lazımi yardım göstərilir. Burada cərrahiyyə, terapiya, dəri-zöhrəvi xəstəlikləri, infeksiya, müayinə, kardiologiya bölməmiz, müalicə və müayinə üçün ultrasəs, fizioterapiya, endoskopiya və digər kabinetlərimiz, laboratoriyamız var.

Həkimlərimizin ixtisas hazırlığı yüksək səviyyədədir. Buna görə də rəhbərliyin hospital qarşısında qoyduğu tapşırığı qüsursuz yerinə yetirə bilirik. Həkimlərimiz hospitalda olan texnologiyalar sayəsində endoskopik, qastroskopik, kolonoskop müayinə və əməliyyatlar, KT, rəqəmsal rentgen müayinələri apara bilirlər. Laboratoriyamızdakı avadanlıqların yüksək imkanları sayəsində xəstələrin diferensiyasını apara bilirik. Xəstələrin müalicə olunduğu reanimasiyamız ən müasir avadanlıqla təchiz olunub".

Hospitalın cərrahiyyə bölməsinin rəisi, polkovnik-leytenant M.Tağıyev bildirdi ki, hospitalda istənilən xarakterli əməliyyatlar icra olunur. Hansı xəstələrin vəziyyəti ki, çox ağırdır, onlar əvvəl burada əməliyyat olunur. Əgər müayinə və müalicə prosesləri mərkəzi hospitalda getməlidirsə, onda Bakıya göndəririk. Amma bu, çox az hallarda olur: "Çünki burada istənilən xəstənin əməliyyatı, sonrakı müalicəsi, diaqnostikası üçün bütün lazımi avadanlıqlarımız və şəraitimiz var. Bu vaxta kimi 7-8 ağır xəstə göndərmişik. Onlardan 3-ü helikopter ilə təcili göndərilib".

Hospitalda xidmət keçən tibb işçisi İlhamə Bəylərova 2020-ci ilin payızında torpaqlarımız işğaldan azad olunandan sonra əvvəlcə Cəbrayıl rayonunda çalışıb. İndi isə Xocavənddə xidmət edir. O, Ali Baş Komandan İlham Əliyevə minnətdarlığını bildirərək dedi ki, dövlət başçımızın düşünülmüş güclü siyasəti nəticəsində doğma torpaqlarımıza ayaq basmışıq, burada xidmət edirik: "Laboratoriyamız müasir tibbi avadanlıqlarla, aparatlarla təmin olunub. Burada heç bir gecikmə olmadan vaxtı-vaxtında bütün müayinələr aparılır. Biz də hər zaman Ordumuzun və əsgərlərimizin qulluğunda durmağa hazırıq."

Hospitalda qasıq nahiyəsindəki yırtıqdan əməliyyat olunmuş Cahandar Eminli ona göstərilən qayğıdan, şəraitdən məmnunluğunu bildirdi, vəziyyətinin yaxşı olduğunu dedi.

Baş çavuş Sevda Yusifova 2002-ci ildən hərbi xidmətdədir. O, Azərbaycan Ordusunda xidmət etməyin olduqca şərəfli hiss olduğunu dilə gətirdi: "30 il idi ki, torpaqlarımız işğal altında idi. Biz bu doğma yerlərin həsrətini çəkirdik. Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında Qarabağ azad olundu. Torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş bütün qardaşlarımızın ruhu qarşısında baş əyir, onları böyüdən analarımızın əllərindən öpürəm. Fəxr edirəm ki, Azərbaycan Ordusunda xidmət göstərirəm".

*Rizvan FİKRƏTOĞLU, "Xalq qəzeti"*
*Bakı–Xocavənd–Bakı*

# 1-ci Bakı Beynəlxalq "Challenge"in açılış mərasimi olub




**Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Gimnastika hamı üçün" növü üzrə 1-ci Bakı Beynəlxalq "Challenge" turnirinə start verilib. "Gimnastika hamı üçün" növü üzrə keçirilən turnir çərçivəsində baş tutan yürüş, komandaların çıxışları, ustad dərsləri, əyləncə dolu proqramlar şəhərimizin sakinləri və qonaqlarını valeh edir, insanlara xoş ovqat və əsl bayram əhval-ruhiyyəsi bəxş edir. Yaşından, görünüşündən və fiziki qabiliyyətindən asılı olmayaraq hər bir şəxsin məşğul ola bildiyi bu idman növü onu izləyənləri heyran etməyə bilməz.**

Tamaşaçılar əvvəlcə turnir iştirakçılarının "Dəniz mall" ticarət mərkəzinin yaxınlığından başlayıb Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının arxasındakı meydanda başa çatan yürüşünü izləyiblər.

Daha sonra "Gimnastika hamı üçün" növü üzrə 1-ci Bakı Beynəlxalq "Challenge" turnirinin təntənəli açılış mərasimi baş tutub.

Tədbirdə ulu öndər Heydər Əliyevə həsr olunmuş videoçarx nümayiş etdirilib. Sonra Avropa Gimnastikasının "Gimnastika hamı üçün" Texniki Komitəsinin prezidenti Xlif Torgeysdottir və Azərbaycan milli komandasının "Gimnastika hamı üçün" növü üzrə baş məşqçisi, Avropa Gimnastikasının "Gimnastika hamı üçün" Texniki Komitəsinin üzvü Ruslan Eyvazov çıxış ediblər. Qeyd edilib ki, "Gimnastika hamı üçün" növü üzrə beynəlxalq "Challenge"ə Azərbaycan, Gürcüstan və Litvanı təmsil edən 46 komandadan 500-ə yaxın idmançı qatılıb.

Azərbaycanın Dövlət Himni səsləndirildikdən sonra "Challenge" iştirakçılarının çıxışları başlayıb. Festivalın keçirildiyi meydanda çoxsaylı tamaşaçı kütləsi komandaların çıxışlarına böyük maraqla tamaşa ediblər.

Azərbaycan Gimnastika Federasiyasının baş katibi Nurlana Məmmədzadə jurnalistlərə açıqlamasında turnirdə Bakı idmançıları ilə yanaşı, Azərbaycanın 20 rayonundan nümayəndələrin də iştirak etdiklərini bildirib. O, iştirakçılar arasında "Qızıl Yaş" kateqoriyasının nümayəndələrinin olmasını təqdirəlayiq hal sayıb.

Baş katib bildirib ki, Azərbaycan Gimnastika Federasiyası gimnastikanın 9 növünü inkişaf etdirir ki, onlardan biri də "Gimnastika hamı üçün"dür.

"Keçən il Bakıda "Gimnastika hamı üçün" növü üzrə milli festival keçirilib. Bu il isə Azərbaycan komandaları ilə yanaşı, Gürcüstan və Litva nümayəndələrinin çıxış etdiyi beynəlxalq tədbirə ev sahibliyi edirik", – deyə o əlavə edib.

Qeyd edək ki, "Gimnastika hamı üçün" üzrə 1-ci Bakı Beynəlxalq "Challenge" iyunun 18-dək davam edəcək.

*L.AZAD, "Xalq qəzeti"*

# Ordumuzun Ermənistan silahlı qüvvələrinin bölmələrini atəşə tutması məlumatı yalandır

**İyunun 17-si saat 18:40 radələrində Azərbaycan Ordusunun bölmələri tərəfindən guya Ermənistan silahlı qüvvələrinin Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərinin müxtəlif çaplı atıcı silahlardan atəşə tutulması barədə bu ölkənin müdafiə nazirliyinin yaydığı məlumat tamamilə yalandır, həqiqətə uyğun deyil.**

Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər. "Qarşı tərəfin yaydığı bu məlumatı qəti surətdə təkzib edirik", – deyə nazirliyin məlumatında qeyd edilib.

# Ortaq mədəni incimiz – qədim türk əlifbası



**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında qədim türk əlifbasının oxunmasının 130 illiyinə həsr olunmuş "Qədim türk yazı mədəniyyəti" adlı beynəlxalq konfrans keçirilib.**

Qazaxıstan, Qırğızıstan, Türkiyə, Almaniya, Monqolustan və Polşadan olan tanınmış türkoloqların iştirak etdiyi tədbir Azərbaycan Respublikasının UNESCO üzrə Milli Komissiyası, Beynəlxalq Türk Akademiyası, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, UNESCO üzrə Türkiyə Milli Komissiyası və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının birgə təşkilatçılığı ilə gerçəkləşib.

Beynəlxalq konfransda Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov, Beynəlxalq Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayev, AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva 130 il əvvəl qədim türk runik yazısının kəşfinin bütün bəşər tarixində ən önəmli hadisələrdən biri olduğunu, konfransın Türk sivilizasiyasının gələcək nəsillərə ötürülməsi baxımından böyük əhəmiyyət daşıdığını söyləyiblər.

Türkiyə Respublikasının UNESCO üzrə Milli Komissiyasının sədri Öcal Oğuz, Azərbaycan Respublikasının UNESCO üzrə Milli Komissiyasının baş katibi Seymur Fətəliyev, Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının üzvü Həsən Həsənov da konfransın türk xalqlarının yazı mədəniyyətinin, onun bəşər sivilizasiyasında yerinin təbliğ edilməsi və gələcək tədqiqat prioritetlərinin müəyyən edilməsi baxımından önəmini qeyd ediblər.

Beynəlxalq konfrans plenar iclaslarla davam edib.

*"Xalq qəzeti"*

# Qarabağ və Şərqi Zəngəzurun sənaye zonaları

## *Belə müasir müəssisələr bölgənin iqtisadi inkişafını sürətləndirəcək*

**Prezident İlham Əliyev mayın 28-də Laçın şəhərinə qayıdan əhali ilə görüşündə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən bərpa, tikinti-quruculuq layihələri haqqında danışarkən, Laçında onlarla müəssisənin yaradılmasının nəzərdə tutulduğunu, burada artıq Aqro və Sənaye Parkının yaradılmasına başlandığını da qeyd edib.**



Xatırladaq ki, işğalçıdan təmizlənən torpaqların dirçəlməsi, bu ərazilərə yeni nəfəs verilməsi strategiyasında sənayeləşmə siyasəti xüsusi yer tutur. Başqa sözlə, Qarabağ və Şərqi Zəngəzurda sənaye parklarının qurulması və bu müəssisələrə investisiya cəlb olunması bölgənin resurslarından, həmçinin iqtisadi imkanlarından yararlanmaqla adları çəkilən iqtisadi rayonların ölkə iqtisadiyyatına səmərəli reinteqrasiyasına əlavə stimul yaradır.

Yeri gəlmişkən, bu ərazilərdə sənayeləşmə prosesinin mərhələli şəkildə aparılacağı planlaşdırılıb. Abadlıq və quruculuq işlərinin həyata keçirilməsi üçün ilkin mərhələdə tikinti şirkətləri prosesə qoşulub. Əhalinin tezliklə işğaldan azad edilən yaşayış sahələrinə qayıdacağı nəzərə alınaraq, bu ərazilərdə məskunlaşan keçmiş məcburi köçkünlərin məşğulluğu, onların ərzağa olan tələbatının ödənilməsi xüsusi diqqətdə saxlanılıb. Bu baxımdan, növbəti mərhələdə kənd təsərrüfatı məhsullarının emalı, yüngül və qida sənayesinin formalaşdırılması prosesinin həyata keçiriləcəyi diqqətdə saxlanılıb.

Laçın Aqro və Sənaye Parkının yaradılması da əsasən bu məqsədə xidmət edir. Parkda ümumilikdə 46 müəssisənin fəaliyyət göstərəcəyi, onların da 80 faizinin bu il yayın sonunadək işə başlayacağı nəzərdə tutulur. Burada həm iri, həm də kiçik mebel fabrikləri, yüngül materiallardan ev və digər konstruksiyalar hazırlayan zavod, balıq təsərrüfatı, yeyinti və yüngül sənaye, ekoloji cəhətdən təmiz emal müəssisələri, eyni zamanda, kiçikbuynuzlu heyvanlar üzrə elmi-təcrübə mərkəzinin yaradılması planlaşdırılır. Bu ayın sonunadək artıq keramik məhsullar fabrikinin də işə düşəcəyi də gözlənilir. Bundan başqa, kinostudiyanın, tekstil, ayaqqabı fabriklərinin açılması, müxtəlif istiqamətlər üzrə qısamüddətli kursların təşkili nəzərdə tutulur.

Hazırda ölkəmizdə iqtisadiyyatın inkişafına, ixrac potensialının artırılmasına, rəqabətqabiliyyətli məhsul istehsalına önəmli töhfə verən sənaye parklarının sırasına "Ağdam Sənaye Parkı" və "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı da qoşulub.

Təməli dövlətimizin başçısı tərəfindən 2021-ci il mayın 28-də qoyulan "Ağdam Sənaye Parkı" Qarabağın yenidən qurulmasında mühüm rol oynayacaq. Adı çəkilən sənaye mərkəzində ilkin müraciətlər əsasında 33 kiçik istehsal və xidmət, iri sənaye və qida sənayesi müəssisələri fəaliyyət göstərəcək. Parka 110 milyon manata yaxın sərmayə qoyulacaq, 330 iş yeri açılacaq.

Qarabağda sənaye parkının qarşısına innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafına, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılmasına və bu sahədə sahibkarlığın dəstəklənməsinə nail olmaq, bölgədə yerli və xarici investisiyalar üçün əlverişliliyin artırılması, əmək qabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun yüksəldilməsi kimi məsələlər mühüm vəzifələr kimi qoyulub.

Ağdam Sənaye Parkı Qarabağın inkişafına, bölgənin qeyri-neft sənayesinin sürətli inkişafına önəmli təsir göstərəcək. Eyni zamanda, bu nəhəng müəssisə respublikamızın ixrac potensialının artırılmasına, innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin inkişafına, ölkəyə valyuta axınının, investisiyaların artmasına yeni imkanlar açacaq.

Cəbrayıl rayonunda yaradılan "Araz Vadisi İqtisadi Zonası"nda da nəzərdə tutulan layihələr uğurla həyata keçirilir. İqtisadi zona 200 hektar ərazini əhatə edir. Parkın aqrar məhsulların emalı, sənaye, sosial və texniki zonalara bölünəcəyi nəzərdə tutulur. Burada logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri və digər sahələri əhatə edən məntəqələrin yaradılması planlaşdırılır.

"Araz Vadisi İqtisadi Zonası"nda tikinti üçün üzlük və izolyasiya materialları, müxtəlif qatqı maddələri, metal konstruksiya istehsalı müəssisələrinin təşkili nəzərdə tutulur. Parkın ərazisində, həmçinin kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, süd və ət məhsulları istehsalı və emalı, şərab, yem, gübrə istehsalı, ipəkçilik müəssisələrinin, soyuducu kameraların qurulması, kiçik istehsal və xidmət sahələrinin yaradılması da planlaşdırılır.

Yeri gəlmişkən, iqtisadi zonada naxçıvanlı sahibkarların da fəaliyyət göstərmələri nəzərdə tutulub. Belə ki, sənaye parkında muxtar respublika sahibkarlarının logistik fəaliyyəti üçün 14 hektar sahə müəyyənləşdirilib. Ərazidə Naxçıvan Sahibkarlar Konfederasiyasının vasitəsi ilə logistik anbarların yaradılması, ilkin mərhələdə əsasən, tikinti materiallarının satışı nəzərdə tutulub.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***

### *Ekspert rəyi*



**Vəkil HÜSEYNOV, iqtisadçı-ekspert**

İşğaldan azad edilmiş ərazilərdə bərpa, tikinti-quruculuq layihələrinin uğurla həyata keçirilməsi üçün stimullaşdırıcı tədbirlər daim diqqət mərkəzində saxlanılıb. Məsələn, vergi güzəştlərinin tətbiqinə xüsusi önəm verilib. Belə ki, işğalçıdan təmizlənən torpaqlarda hər bir rezidentl cari il yanvarın 1-dən etibarən 10 il müddətində mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergilərdən azad edilib. Eyni zamanda, həmin ərazilərin rezidenti olan hüquqi şəxslərin səhmdarlarının (payçılarının) dividend gəlirləri göstərilən tarixdən etibarən 10 il müddətində vergidən azad olunub.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ƏDV qeydiyyatında olan rezidentlərinin siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qurum tərəfindən təsdiqlənən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların idxalı cari ilin yanvarın 1-dən etibarən 10 il müddətində ƏDV-dən azad edilib.

Vergi güzəştlərinə əlavə olaraq, "Sosial sığorta haqqında" Qanuna dəyişikliklərə əsasən, Azərbaycan Respublikasının işğaldan azad olunan ərazilərində fəaliyyət göstərən maliyyə və avtonəqliyyat vasitələri ilə yükdaşıma sahələrində fəaliyyət göstərən, eləcə də dövlət büdcəsinin vəsaiti hesabına malları (işləri və xidmətləri) təqdim edən podratçılara (işğalçıdan təmizlənən ərazi daxilində istehsal fəaliyyətini həyata keçirən rezident podratçılar istisna olmaqla) neft-qaz sahələrində fəaliyyəti olmayan sığortaedənlər (sığortaolunanlar) tərəfindən ödənilən məcburi dövlət sosial sığorta haqqının müəyyən hissəsi dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılır.

Sonda qeyd edim ki, Qarabağ və Şərqi Zəngəzurda yaradılan sənaye parkları bu iqtisadi rayonların inkişafına, bölgənin qeyri-neft sənayesinin sürətli inkişafına önəmli təsir göstərəcək. Eyni zamanda, bu müəssisələr respublikamızın ixrac potensialının artırılmasına, innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin inkişafına, ölkəyə valyuta axınının, investisiyaların artmasına yeni imkanlar açacaq.

### *Azərbaycan – İran Birgə Komissiyası*

# Araz su anbarının iş rejimi və su bölgüsü müəyyənləşdirilib



**"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-dən verilən məlumata əsasən, Araz çayının su və energetika ehtiyatlarından istifadə üzrə Azərbaycan Respublikasının və İran İslam Respublikasının daimi fəaliyyət göstərən Birgə Komissiyasının 52-ci görüşü Bakı şəhərində keçirilib.**

Azərbaycan–İran Birgə Komissiyasının Azərbaycan tərəfindən həmsədri, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədr müavini Zakir Quliyevin rəhbərliyi ilə keçirilən iclasda səhmdar cəmiyyətin, Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Naxçıvan MR-nın aidiyyəti təşkilatlarının nümayəndələri iştirak ediblər.

Görüşdə bir sıra məsələlər müzakirə edilib, o cümlədən, Araz su anbarının iş rejimi və iki ölkə arasında su bölgüsü müəyyənləşdirilib, Araz çayında su və energetika ehtiyatlarından birgə istifadə üzrə müvafiq bölgü cədvəlləri hazırlanıb və protokol imzalanıb.

# Milli valyuta əmanətləri 12 milyard manatı ötüb

**Mərkəzi Bankın məlumatına görə, əhalinin banklardakı əmanətlərinin məbləği il ərzində 16,1 faiz artaraq 2023-cü il may ayının 1-nə milli valyuta ekvivalentində 12 milyard 211,6 milyon manat təşkil edib.**



Dövlət Statistika Komitəsininin bununla bağlı məlumatında bildirilib ki, əmanətlərin 62,8 faizi milli, 37,2 faizi xarici valyutada qoyulub. Milli valyutada olan əmanətlərin məbləği əvvəlki ilin eyni dövrü ilə müqayisədə 20,8 faiz, xarici valyutada qoyulmuş əmanətlərin məbləği isə 9,1 faiz artıb.

May ayında milli valyutanın 1 ABŞ dollarına nisbətdə orta məzənnəsi 1,70 manata, 1 Avroya 1,85 manata, 100 türk lirəsinə 8,62 manata, 100 rus rubluna nisbətdə isə 2,14 manata bərabər olub.

# BP və tərəfdaşları ölkəmizdə sosial layihələrə 108 milyon dollar xərcləyib

**BP şirkəti indiyədək tərəfdaşları ilə birlikdə ölkəmizdə reallaşdırdığı layihələrə təxminən 84 milyard dollar sərmayə qoyub.**

Şirkətin sosial sərmayələri yerli potensialın yaradılması, təhsil, icmaların inkişafı, yerli sahibkarlıq, ətraf mühit, idman potensialının artırılması, habelə zəngin mədəni irsin tədqiqi və təbliği kimi sahələrə yönəldilib.



Fəaliyyətə başladığı vaxtdan indiyədək BP və tərəfdaşları adından ölkədəki sosial sərmayə layihələrinə ümumilikdə 108 milyon ABŞ dollarından çox vəsait xərcləyib.

Azərbaycanda BP şirkətində təxminən 2300 Azərbaycan vətəndaşı çalışır və bu da şirkətin ixtisaslı işçi heyətinin 90 faizindən çoxunu təşkil edir.

***"Xalq qəzeti"***

# 2050-ci ilədək Azərbaycanda adambaşına gəlir 40 faiz artacaq

## *Bu proqnoz Dünya Bankının "Qlobal iqtisadi perspektivlər" hesabatında yer alıb*

*(əvvəli 1-ci səhifədə)*

O deyib ki, hesabatda inkişaf etməkdə olan iqtisadiyyatlara xüsusi diqqət yetirilməklə qlobal iqtisadi hadisələr və perspektivlər araşdırılır. Bu baxımdan hesabatın mühüm praktik əhəmiyyətə malik olduğunu diqqətə çatdıran S. Məmmədov bildirib ki, sözügedən sənəd iqtisadi idarəetmə, biznes, investorlar, maliyyə-bank sektoru üçün vacib məlumat mənbələrindən biridir.

Tədbirdə qlobal çağırışlara adekvat yanaşma, ölkə iqtisadiyyatının daha sürətlə şaxələndirilməsi və dayanıqlı iqtisadi artımın təmin olunması, azad edilmiş ərazilərimizin bərpası və reinteqrasiyası məqsədilə həyata keçirilən 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası və digər dövlət proqramları çərçivəsində görülən işlər barədə məlumat verilib. Azərbaycanın Avropanın etibarlı enerji təchizatçısına, eləcə də beynəlxalq əhəmiyyətli nəqliyyat və nəqliyyat-logistika qovşağına çevrildiyi, ölkəyə strateji investorların marağının əhəmiyyətli dərəcədə artdığı vurğulanıb.

Yeri gəlmişkən, ekspertlər hesab edirlər ki, "Qlobal İqtisadi Perspektivlər" hesabatı Azərbaycanın yuxarı-orta gəlirli ölkə kimi qlobal iqtisadiyyat barədə müzakirələrə daxil edilməsi və Dünya Bankının gələcək hesabatlarında ölkəmizin mövqeyinin nəzərə alınması baxımından əhəmiyyət daşıyır.

Təqdimat mərasimində çıxış edən Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Sara Maykl qlobal iqtisadiyyatda baş verən dəyişikliklər fonunda bank tərəfindən ildə iki dəfə dərc olunan "Qlobal İqtisadi Perspektivlər" hesabatının xüsusi əhəmiyyət daşıdığını bildirib. Ölkə meneceri deyib ki, cari ilin ikinci yarısında qlobal artım əhəmiyyətli dərəcədə ləngiyəcək, 2024-cü ildə isə zəif artım müşahidə olunacaq. Qarşıdakı dövrdə inflyasiya təzyiqinin davam edəcəyini, sərt pul-kredit siyasətinin isə, gözlənildiyi kimi, bundan sonra da iqtisadi artıma mənfi təsir göstərəcəyini vurğulayan bank nümayəndəsi bildirib ki, bunun inkişaf etməkdə olan ölkələr və bazarlar üçün mürəkkəb qlobal şərait yaradacağı gözlənilir.




Azərbaycanda aparılan iqtisadi islahatların bir çox beynəlxalq maliyyə qurumları, o cümlədən Dünya Bankı tərəfindən dəstəkləndiyini vurğulayan Sara Maykl ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin uğurlarından, əldə olunan nailiyyətlərdən söhbət açıb. O, Dünya Bankının Azərbaycan hökuməti ilə sıx əməkdaşlığı davam etdirdiyini diqqətə çatdırıb. "Ötən il hökumət 2026-cı ilədək sosial-iqtisadi inkişaf üzrə yeni strategiya qəbul edib. Strategiya iqtisadi artımın və sosial rifahın canlanması və sürətlənməsi üçün iddialı proqramlar toplusu, investisiyalar və islahatları əks etdirir",–deyə o əlavə edib.

Bank meneceri, həmçinin qeyd edib ki, hökumətin strategiyası ÜDM-in ortamüddətli perspektivdə hər il 3 faizdən 4 faizədək artmasını hədəfləyir, lakin qeyri-neft və qaz sektorlarında ÜDM artımı 5 faizə yaxın olmalıdır. Dünya Bankının uzunmüddətli proqnozlarına əsasən, hazırki artım modeli ilə növbəti 30 il ərzində adambaşına düşən ÜDM-in yalnız 10 faiz civarında arta biləcəyini diqqətə çatdıran ölkə meneceri deyib ki, belə ssenari ilə 2050-ci ilədək Azərbaycan gəlir səviyyəsi orta səviyyədən yüksək olan ölkə olaraq qalacaq. Onun fikrincə, yeni artım modelində dövlətin yardımı ilə dinamik özəl sektorun dəstəklənməsinə yönəlmiş daha optimist imkanlar da var.

O, həmçinin bildirib ki, Dünya Bankı tərəfindən 2050-ci ilədək Azərbaycanda adambaşına düşən gəlirin ölkənin indiki inkişaf sürəti ilə müqayisədə azı 40 faiz, hətta daha çox arta bilər. "Bu, ölkənin məqsədlərinə nail olmasına əhəmiyyətli dərəcədə kömək edə bilər. Ümid edirik ki, bu tədbir hazırda Azərbaycanın inkişaf sürətini müəyyən edən, həmçinin yaxın illərdə ölkənin artım imkanlarına təsir göstərəcək qlobal tendensiyaları anlamaq və onlar barəsində fikir mübadiləsi aparmağımız üçün unikal imkan olacaq",– deyə o, fikrini tamamlayıb.

Tədbirdə "Qlobal İqtisadi Perspektivlər" hesabatının meneceri Franziska Ohnsorge "Qlobal iqtisadiyyatın qısa və uzunmüddətli artım perspektivləri: yavaşıyan artım və güclənən risklər" mövzusunda təqdimatla çıxış edib.

Sonda Dünya Bankının və ölkəmizin müvafiq dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə "Qlobal və regional iqtisadi yavaşlamanın Azərbaycana təsiri" mövzusunda panel müzakirəsi aparılıb. Qeyd olunub ki, "Qlobal İqtisadi Perspektivlər" hesabatı formalaşmaqda olan bazarlara və inkişaf etməkdə olan iqtisadiyyatlara xüsusi diqqət yetirməklə qlobal iqtisadi hadisələri və perspektivləri araşdıran Dünya Bankı Qrupunun flaqman hesabatıdır və sənəd dərc edildikdən sonra dünyanın bir sıra aparıcı şəhərlərində "roudşou" formasında təqdim olunur. 2023-cü il iyun buraxılışının təqdim olunacağı şəhərlər sırasında bank tərəfindən Bakının da yer alması qərara alınıb.

Ekspertlərin fikrincə, "Qlobal İqtisadi Perspektivlər" hesabatı Azərbaycanın yuxarı-orta gəlirli ölkə kimi qlobal iqtisadiyyat barədə müzakirələrə daxil edilməsi və Dünya Bankının gələcək hesabatlarında aparılacaq təfərrüatlı təhlillər zamanı ölkəmizin mövqeyinin nəzərə alınması baxımından əhəmiyyət daşıyır. Eyni zamanda, hesabat Azərbaycan ictimaiyyətinə Dünya Bankının araşdırmaları ilə tanış olmaq üçün daha geniş fürsət yaradılması məqsədilə ölkənin elmi-tədqiqat dairələrinin, hökumət qurumlarının, beyin mərkəzlərinin, kütləvi-informasiya vasitələrinin potensialının gücləndirilməsinə xidmət edir.

***Mirbağır YAQUBZADƏ, "Xalq qəzeti"***

# Bölgələrdə bayram tədbirləri davam edir



## GƏNCƏ

Şəhər icra hakimiyyətinin dəstəyi və F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasının təşkilatçılığı ilə 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş geniş konsert proqramı təşkil olunub.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun, hüquq-mühafizə orqanları rəhbərlərinin, idarə, müəssisə, təşkilat rəhbərləri və ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbirin əvvəlində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin və Vətən müharibəsində canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Qeyd olunub ki, iyunun 15-i xalqımız üçün əsl qurtuluş tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına güvənən və arxa, dayaq olan dahi şəxsiyyət Heydər Əliyevdir. Ulu öndərin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmlənməsində, sivil dünyaya sıx inteqrasiya etməsində və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynayıb. Ulu öndərdən sonra isə bu siyasəti möhtərəm Prezidentimiz İlham Əliyev uğurla inkişaf etdirir, Azərbaycan daha da möhkəmlənir və qüdrətlənir.

Bayram konsertində "Göy-göl" Dövlət Mahnı və Rəqs Ansamblının (bədii rəhbər Sahil Quliyev və baletmeystr Sənan Cavadov) təqdimatında xalq və bəstəkar mahnıları ifa olunub. Xalq artisti Şahnaz Hamışova, solistlər Rövşən Məmmədov, Əli Məmmədov, Xəyal Əliyev, Zəminə Nuriyeva və digərləri rəngarəng repertuarlarla çıxış ediblər.

## LƏNKƏRAN



Şəhər ictimaiyyəti Milli Qurtuluş Günündə elliklə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömrü boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə gəldiyi günü dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir. Həmin gün respublikanın bütün ərazilərində olduğu kimi, Lənkəranda da silsilə tədbirlərlə qeyd olunub.

Səhər saatlarından başlayaraq ulu öndərin Heydər Əliyev xatirə parkında ucaldılmış abidəsi Lənkəran Şəhər İcra Hakimmiyyətinin başçısı Taleh Qaraşov, icra aparatının kollektivi, rayonun hüquq-mühafizə orqanlarının nümayəndələri, hərbi qulluqçular, idarə, müəssisə və təşkilatların əməkdaşları, habelə geniş ictimaiyyət tərəfindən ziyarət olunub.

Sonra rayon rəsmiləri Heydər Əliyev muzeyinə baş çəkiblər. Ulu Öndərin büstü önünə tər güllər düzülüb, ziyarətçilər ümummilli liderin həyat və fəaliyyətini əks etdirən fotostendlərlə tanış olublar,

Milli Qurtuluş Gününə həsr olunan "Heydər Əliyevin xilaskar qayıdışı" adlı konfrans ulu öndərin və şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad olunması və Dövlət Himninin səsləndirilməsi ilə başlanıb. Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov çıxışında bildirib ki, Heydər Əliyev Azərbaycanın ağır vəziyyətdə olduğu vaxt xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdaraq, qısa müddət ərzində ölkəmizi vətəndaş həmrəyliyinin, əmin-amanlığın hökm sürdüyü, demokratik təsisatların fəaliyyəti üçün geniş şəraitin yaradıldığı bir diyara, xarici sərmayədarlar üçün isə əlverişli imkanlar açan, hərtərəfli əməkdaşlığa hazır olan bir tərəfdaşa çevirdi. Ulu öndər böyük siyasi ustalıq, dərin zəka, dövlətçilik təcrübəsi ilə bütün maneələri aradan qaldıraraq ölkəni dönməz tərəqqi yoluna çıxardı.

Digər çıxışlarda qeyd edilib ki, son dərəcə mürəkkəb və qarışıq bir şəraitdə Azərbaycan dövlətçiliyinin xilaskarı kimi yenidən rəhbərliyə qayıdan Heydər Əliyev güclü iradəsi və əzmi ilə ölkəmizi düşdüyü ağır vəziyyətdən qurtarıb, və Azərbaycanı beynəlxalq birliyin tamhüquqlu üzvlərindən birinə çevirib. Bir əsrdə ikinci dəfə milli dövlətçiliyi dağılmaq təhlükəsi qarşısında qalan Azərbaycan xalqı yalnız Heydər Əliyev dühasına, sarsılmaz iradəsinə, əzminə, zəngin dövlətçilik təcrübəsinə və siyasi fəhminə arxalanaraq, öz dövlətini qoruyub, qurub və möhkəmləndirib.

Sonda ümummilli liderin xilaskarlıq missiyasına həsr edilən videoçarx nümayiş olunub.

## QAZAX

Rayon Mədəniyyət Mərkəzinin qarşısında keçirilən bayram tədbirində icra hakimiyyətinin başçısı Rəcəb Babaşov, Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini Bayram Yusifov, icra aparatının məsul əməkdaşları, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, təhsil, səhiyyə, mədəniyyət işçiləri, ərazi dairələri üzrə nümayəndələr, bələdiyyə sədrləri, şəhid ailələrinin üzvləri, müharibə iştirakçıları,



qazilər, ziyalılar, gənclər iştirak ediblər.

Rayon rəhbərliyi və qonaqlar əvvəlcə Qazax Dövlət Rəsm Qalereyasının, Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin ümummilli lider Heydər Əliyevin 100 illiyinə və 15 İyun – Milli Qurtuluş Gününə həsr etdikləri rəsm və kitab sərgisi ilə tanış olublar.

Tədbirdə Milli Qurtuluş Gününün xalqımızın tarixində tarixi dönüş mərhələsi olduğu vurğulanıb, ulu öndərin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində və ölkəmizin davamlı inkişaf yoluna çıxmasında misilsiz xidmətləri dönə-dönə qeyd olunub. Ümummilli liderin miras qoyduğu alternativsiz siyasi xəttin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilməsindən, Qurtuluşdan Zəfərə doğru addımlamış qalib Azərbaycanın regionda yeni reallıqlar yaratmasından və söz sahibi olmasından ətraflı bəhs edilib.

## ŞƏMKİR

Rayonda bayram təntənələri "Muğamın sehrində" konsert proqramının xoş sədaları altında keçib.

Rayon rəsmiləri, dövlət qurumlarının rəhbərləri, ictimaiyyət nümayəndələri əvvəlcə ümummilli liderin abidəsini ziyarət edərək, önünə gül dəstələri düzüb, əziz xatirəsini dərin ehtiramla yad ediblər.




Heydər Əliyev Mərkəzində keçirilən tədbirin rəsmi hissəsində Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Şəmkir RİH başçısı Rəşad Tağıyev çıxışında bildirib ki, 15 iyun tarixi Azərbaycanın məhv olmaq təhlükəsindən xilas edildiyi gündür və bu əlamətdar gün ölkəmizdə geniş qeyd edilir. O zaman böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürən Heydər Əliyev dövlətimizin müstəqilliyinin qorunub saxlanılmasına, vətəndaş qarşıdurmasının qarşısının alınmasına, dərin siyasi-ictimai böhrana son qoyulmasına nail olub. Bir müddət sonra xalqın iradəsi ilə prezident seçilən Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanda böyük quruculuq mərhələsi başlanıb və həmin dövr ölkə tarixinə qızıl hərflərlə yazılıb.

İcra başçısı qeyd edib ki, bu gün Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha da inkişaf edərək Cənubi Qafqazın şəriksiz lider dövlətinə çevrilib, Qarabağ savaşında möhtəşəm qələbə qazanılıb və ölkəmizin ərazi bütövlüyü bərpa olunub.

Digər natiqlər ulu öndərin tarixi sınaq günlərində atdığı cəsarətli addımlardan, xalqımız qarşısında misilsiz xidmətlərindən danışıblar.

Sonra Şəmkir Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə təqdim olunan "Muğamın sehrində" adlı konsert proqramında ulu öndərin sevdiyi musiqilər səsləndirilib.

## AĞSTAFA

Ağstafa Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Milli Qurtuluşumuzun 30-cu ildönümü" adlı möhtəşəm bayram konserti təşkil olunub.

Ölkəmizin tanınmış incəsənət xadimlərinin iştirakı ilə şəhər Mərkəzi stadionun qarşısında keçirilən izdihamlı bayram tədbirinə RİH başçısı Seymur Orucov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələrinin üzvləri, qazilər, "N" saylı hərbi hissənin əsgər və zabit heyətləri də qatılıblar.

Aparıcılar tariximizə qızıl hərflərlə yazılmış 15 İyun – Milli Qurtuluş Gününün ümummilli-tarixi əhəmiyyətindən bəhs ediblər. Konsert proqramı boyunca bu tarixi yaratmış, xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış, ardıcıl səylərlə dövlət müstəqilliyimizin dönməz xarakter almasını təmin etmiş qüdrətli şəxsiyyət, ümummilli lider Heydər Əliyevin xidmətləri xatırlanıb.

Konsertdə şair Cığatel İsaqızının çıxışı, eləcə də müğənnilərin ifasında bəstəkarların Vətən, xalq haqqında mahnılar tamaşaçılar tərəfindən rəğbətlə qarşılanıb.



Eyni zamanda sənətkarların əl işlərindən ibarət "ArtFest" incəsənət sərgi-yarmarkası təşkil olunub. Sərgidə respublikanın müxtəlif bölgələrindən 60 sənətkarın əl işləri, rəsm əsərləri və kitablar nümayiş olunub və satışı təşkil edilib.

## TOVUZ

Rayon icra hakimiyyətinin təşkilatçılığı ilə "Milli dövlətçiliyimizin xilaskarı" mövzusunda keçirilən tədbir maraqla qarşılanıb.

Nizami adına Mədəniyyət evində keçirilən tədbirdə rayon rəsmiləri, qonaqlar və ictimaiyyət nümayəndələri iştirak ediblər. Öncə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub və önünə gül dəstələri qoyulub.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra çıxış edən RİH başçısı Məmməd Məmmədov Milli Qurtuluş gününün tarixi əhəmiyyətini vurğulamış, ulu öndərin Azərbaycanın dövləti müstəqilliyinin qorunması, ölkəmizin qüdrətlənməsi naminə həyata keçirdiyi misilsiz xidmətlərindən bəhs edib. O deyib ki, əgər 1993-cü il iyunun 15-də xalqın istəyi və tələbi ilə dövrümüzün müdrik və qətiyyətli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıdışı gerçəkləşməsəydi, indi biz müstəqil, qüdrətli, yeniləşən və demokratikləşən Azərbaycan dövlətindən danışa bilməzdik. Bu qayıdış Azərbaycanın müstəqilliyini dünya müstəvisində reallığa çevirdi. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə milli birliyin təmin edildiyi günü xalq öz xilaskarının şərəfinə Azərbaycanın ən yeni tarixinə Milli Qurtuluş Günü kimi yazmışdır.

Ürək sözlərini söyləyən digər natiqlər ulu öndərin xalqımız və tariximiz qarşısında xidmətlərindən qədirbilənliklə söz açıb, bugünkü nailiyyətlərimizə görə məhz dahi şəxsiyyətin ruhuna borclu olduğumuzu vurğulayıblar.



## GÖYGÖL

Şəhərdəki Heydər Əliyev adına parkda yerləşən "Yay kinoteatrı"nda 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş bayram konserti böyük izdihamla müşayiət olunub.

Göygöl Rayon İcra Hakimiyyəti və Şəmkir Regional Mədəniyyət İdarəsinin Göygöl rayon üzrə nümayəndəlıyinin və Mədəniyyət mərkəzinin təşkil etdiyi bayram konsertinə icra hakimiyyətinin başçısı Elvin Paşayev, Yeni Azərbaycan Partiyası Göygöl rayon təşkilatının sədri Vüqar İsayev, idarə, müəssisə və təşkilat rəhbərləri şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələri də qatılıblar. Konsertdə yerli sənətkarların ifasında rəngarəng musiqi nömrələri təqdim olunub.

şəxsiyyət Heydər Əliyevin xalqın təkidi ilə yenidən rəhbərliyə qayıdışından sonra qurtulduğunu, Azərbaycanda uğurlu gələcəyin təməlinin qoyulduğunu diqqətə çatdırıb. Rayon rəhbəri bildirib ki, bu tarixi gün müasir Azərbaycanın müstəqilliyinin təntənəsi, hüquqi dövlət quruculuğunun başlanğıcıdır. Məhz dünya şöhrətli siyasətçi Heydər Əliyevin qətiyyətli siyasi kursu, neft strategiyası, bütün sahələrdə həyata keçirdiyi davamlı islahatlar tezliklə ölkəmizi dünyanın aparıcı dövlətlərindən birinə çevirdi. Bu gün müdrik zəka sahibi Heydər Əliyevin sağlam təməllər üzərində qurduğu siyasət möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Digər natiqlər o dövrün tarixi hadisələrindən, Azərbaycanın bu gün əldə etdiyi nailiyyətlərdən danışıblar.

Həmin gün Masallı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə şəhərin mərkəzindəki Heydər Əliyev parkında təşkil olunan konsert proqramı da ictimaiyyət tərəfindən maraqla izlənilib. Tanınmış musiqiçilərin çıxışları və sondakı atəşfəşanlıq iştirakçılara sevincli anlar yaşadıb.

## ASTARA

Rayon ictimaiyyətinin nümayəndələri Milli Qurtuluş Günündə ulu öndər Heydər Əliyevin abidəsini zuyarət edərək, önünə tər gül dəstələri qoyub, ölməz xatirəsini böyük hörmət və ehtiramla yad ediblər.

Heydər Əliyev Mərkəzində "Milli Dövlətçiliyimizin Xilaskarı" mövzusunda keçirilən tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Qəzənfər Ağayev böyük tarixi inkişaf yolunda olan doğma Vətənimizin hər yerində 15 iyun Qurtuluş Günü bayramının təntənə ilə qeyd edildiyini bildirib. Qeyd olunub ki, 1993-cü ilin 15 iyun tarixi Azərbaycanın



## MASALLI

Şəhərdəki Heydər Əliyev Mərkəzində Milli Qurtuluş Günü münasibətilə keçirilən konfransda Masallı rayonunun rəsmiləri, hüquq-mühafizə orqanları, idarə, müəssisə və təşkilatların rəhbərləri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül-çiçək dəstələri düzüblər. Sonra ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransda Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov rayon sakinlərini Milli Qurtuluş Günü bayramı münasibətilə təbrik edərək, ölkəmizin düçar olduğu bəlalardan dahi

tənəzzüldən xilas olaraq tərəqqi yoluna çıxması, dünya miqyasında müstəqil siyasət həyata keçirən dövlət kimi tanınması, beynəlxalq aləmdə layiqli yerini tutması ilə səciyyələnir. 1993-2003-cü illərdə Azərbaycanın sürətli inkişafı bugünkü reallıqların möhkəm bünövrəsi kimi dəyərləndirib. Bugünkü Azərbaycanın Heydər Əliyevin görmək istədiyi azad, müstəqil, ərazi bütövlüyü təmin olunmuş bir dövlət olduğu iftixarla vurğulanıb.

Tədbirdə digər natiqlər də Milli Qurtuluş Gününün taruixi önəmindən bəhs ediblər.

Bayram təntənələri Astara şəhəri park-bulvar ərazisində təşkil olunmuş konsertlə davam edib.

***Hamlet QASIMOV,***
***Əli ƏLİYEV,***
***"Xalq qəzeti"***





# “Cənab Ərdoğanın Azərbaycana etdiyi son rəsmi səfər bütün dünyaya çox ismarışlar verir”

**“Türkiyə ilə Azərbaycan dövləti arasındakı əlaqələr dostluq əlaqələrindən çox yüksəkdir. Bunun tarixi dərinlikləri vardır. Çünki bizim tarixi soydaşlıq və qardaşlıq əlaqələrimiz mövcuddur.”**



Bu fikirləri “Xalq qəzeti”nin Türkiyə təmsilçisinə Türkiyə Prezidenti yanında Təhlükəsizlik və Xarici Əlaqələr Şurasının üzvü, professor İsmail Safi bildirib.

İsmail Safinin fikrincə, bu səbəbdəndir ki, Azərbaycanla Türkiyə arasındakı müttəfiqlik başqa ölkələrlə müqayisə olunmayacaq qədər fərqlidir: “Yaxın keçmişə nəzər salaq: 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan öz hərbi gücü ilə torpaqlarını işğaldan azad etsə də, Türkiyənin və şəxsən Rəcəb Tayyib Ərdoğanın Azərbaycana verdiyi siyasi dəstək nəticəsində “Qarabağ Azərbaycandır, türk yurdudur” faktı bütün dünyada sübut olundu və bu zəfər təkcə Azərbaycanın deyil, bütün türk dünyasının



zəfəri kimi dəyərləndirildi. Ondan sonra qəbul edilən Şuşa Bəyannaməsi isə Türkiyə ilə Azərbaycanın əlaqələrinin strateji müttəfiqlik səviyyəsinə qədər yüksəltdi. Məhz bu baxımdan Şuşa Bəyannaməsi bölgədə yeni geosiyasi və geoiqtisadi münasibətlərin başlanğıcını qoydu.

2021-ci ilin yayında baş verən kütləvi yanğın fəlakətində Azərbaycan Türkiyəyə ilk dəstək verən ölkə oldu.

Bu ilin fevralında Türkiyədə 11 vilayətimizi viranə qoyan zəlzələ fəlakətində yaşadığımız ağır, iztirablı günləri Azərbaycan dövləti və xalqı bizimlə barəbər yaşadı və bütün qüvvəsilə köməyini əsirgəmədi.

Bu ilin aprelində Türkiyədə keçirilən TEKNOFEST, bizim üçün bir elm, bilim bayramı idi, Azərbaycan ən yüksək səviyyədə iştirak etdi.

Yeri gəlmişkən, onu da deyim ki, bütün dünyanın da diqqət mərkəzində olan birinci turu 14 may, ikinci turu 28 mayda keçirilən prezident seçkiləri prosesində Azərbaycanın verdiyi mənəvi dəstək demokratik seçkinin qələbəsinə verilən dəstək kimi qəbul edilməlidir. Çünki bu, həqiqətən, səmimi bir dəstək idi.

Prezidentimizin yeni prezidentlik dövrü üçün səlahiyyətlərinin icrasına başlama mərasimində Azərbaycan dövlət başçısına və xanımına verilən mötəbər yerdən də hər birimiz qürur duyduq. Yəni, bütün bunlar ilk növbədə, hər iki dövlətin eyni soydan olan xalqları tərəfindən arzulandığı üçün baş tutur və heç bir qüvvə bundan sonra iki qardaş xalqın münasibətlərinə xələl gətirə bilməz”.

R.T.Ərdoğanın Azərbaycana son rəsmi səfərini şərh edən professor deyib ki, Türkiyədə prezident seçildiyi zaman ilk səfər etdiyi ölkənin birincisi Şimali Kipr Türk Cümhuriyyəti, ilkincisinin isə Azərbaycan olması bir ənənə halını alıb: “Şimali Kipr bizim yavru vətənimizdir. Təkcə Türkiyənin deyil, bütün türk dünyasının, eləcə də Azərbaycanın. Amma Kıbrıs türkləri mövzusu bizim üçün nə qədər əhəmiyyətlidirsə, Azərbaycan türkləri də o qədər əhəmiyyətlidir.

Bu gün Türkiyə ilə Azərbaycan arasında əlaqələrin bütün türk dünyasında çox konstruktiv təsiri var, bu da bizi vaxtilə xəyalımıza belə gətirə bilmədiyimiz Türk Dövlətləri Təşkilatının qurulması ilə nəticələnən bir nöqtəyə gətirib çıxardı. Bütün bunlar isə Cənab Ərdoğanla Cənab Əliyevin liderliklərinin və xidmətlərinin nəticəsidir. Odur ki, növbəti dəfə prezident seçildikdən sonra Cənab Ərdoğanın Azərbaycana etdiyi rəsmi dövlət səfərində bütün dünyaya verilən çox ismarışlar vardı”.

***Mehparə SULTANOVA,***
**Ankara**

# Çingiz xandan başlayan türk qövmü: noqaylar

**Hazırda dünyanın müxtəlif bölgələrində, təxminən, 300 milyondan çox türk soyundan olan insan yaşayır. Müstəqil dövlət quruluşuna malik olan və BMT tərəfindən tanınan 6 türkdilli dövlət var. Bunlar Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistandır. Bundan əlavə, dövlət qurumuna malik olmayan, muxtəlif dövlətlərin ərazisində kompakt yaşayan 40-a yaxın türk soyundan olan xalqlar da var. Bu dəfə onlardan biri – "Qaranoğay" və ya "Noğay-Qaraqaş" adlandırılan noqaylar haqqında bəhs edəcəyik.**




Noqay adına tarixdə ilk dəfə orta əsrlərdə, Monqol imperiyasının dağılmasından sonra (1368) rast gəlinir. Belə ki, öz adını Qızıl Orda imperatorluğunun böyük komandanlarından olan, Çingiz xanın nəticəsi Noqaydan alan noqaylar bu imperiyanın çöküşündən sonra Noqay Xanlığını yaradaraq Volqadan İrtışa, Xəzər dənizindən Aral gölünə qədər böyük bir ərazini öz hakimiyyəti altında birləşdirmişdi. Xanlığın paytaxtı Saraycıq şəhəri idi. Əhalisinin əsasını Qazan, Krım, Həştərxan və Sibir xanlıqlarında olduğu kimi, qıpçaq türkləri təşkil edirdi.

Noqaylar əsasən əkinçilik, köçəri maldarlıq və atçılıqla məşğul idilər. Hərb prinsipi bütün məsələlərdən öndə idi. Hər noqay gənci orduda xidmət etməli idi. Onların öz mədəniyyətləri, məişət formaları vardı. Kımız və keçi ətindən qovurma süfrənin şahı idi və ən hörmətli qonaqlara hazırlanardı. Böyük əksəriyyətin dini baxışları tenqriçilik idi. Qızıl Orda dövlətində islam dini rəsmən qəbul edilsə də, bir çox qəbilələr, tayfalar, o cümlədən noqaylar sonralar müsəlman oldular. Müasir dövrdə onların böyük hissəsi İslam dininin hənəfi məzhəbinə aiddirlər.

Onu da qeyd edək ki, antropoloji baxımdan noqaylar, kiçik güney Sibir irqinə aiddir – hansı ki, monqoloid və avropoid arasında keçid sayılır. Monqoloid xüsusiyyətləri noqayları öz ətraflarından kəskin fərqləndirir. Noqayların müxtəlif qrupları müəyyən dərəcədə qarışıqlıqlığa uğrayıblar. Misal üçün, kuban və kumsk noqaylarının intensiv olaraq yerli adıgeylər (çərkəzlər) ilə qarışması nəticəsində onlarda daha çox avropoid xüsusiyyətləri nəzərə çarpır. Bir vaxtlar noqaylar Qara dənizdən Aral dənizinə qədər olan ərazilərdə yaşayırdılar.

1728-ci ildə noqayların bir hissəsi Qara dənizin quzey bölgələrinə köç edərək orada Osmanlıların asılılığını qəbul etdilər. Rusların həmin ərazilərə yürüşündən sonra isə (1771) bu türk toplumu Kubana köçürüldü.

Tarixin sonrakı dövrlərində Rusiyada baş verən inqilablar, çevrilişlər imperiyanın daxilində yaşayan bütün xalqlar kimi noqayların da həyatına təsirsiz ötüşmədi və onlar kütləvi şəkildə müxtəlif ərazilərə köç etməyə məcbur oldular. Nəticədə, qonşu ərazilərə keçərək digər xalqların tərkibində oturaq həyata keçdilər. Hazırda dünyada 230 mindən çox noqay türkünün olduğu bildirilir. Onlar əsasən, Şimali Qafqazda–Dağıstan, Stavropol, Qaraçay–Çərkəz, Həştərxan bölgələrində və Çeçenistan ərazisində məskunlaşıblar. Noqaylar həmçinin Türkiyə, Rumıniya, Macarıstan, Bolqarıstan və Litvada da yaşayırlar. Moskva və Sankt–Peterburq kimi iri şəhərlərdə noqay diasporları fəaliyyət göstərir.

Hazırda dövlət dili rusca olsa da, yaşadıqları rayonda öz türk dillərində danışırlar. Onların dili türk-qıpcaq dil qrupuna aiddir. Məhrumiyyətlərə rəğmən, bir bayraqları mövcuddur. Bayraq mavi rəngdədir və üzərində qanadlı Bozqurd simgəsi əks olunub.

Beləliklə, bir vaxtlar qüdrət sahibi olan noqay ulusunun uzunmüddətli müharibə və qətliamlardan sonra bu gün varlıqlarını qoruması, yenə də böyüməyə can atması əsl qəhrəmanlıq nümunəsidir.

Noqay soydaşlarımıza əmin-amanlıq və əzmkarlıq arzu edirik.

***Mahmud QƏRİBOV,***
***“Xalq qəzeti”***



# Qazaxıstanlı alimlər Mikrobiologiya İnstitutunda

**Qazaxıstan Respublikasının Elm və Təhsil Nazirliyinin Elm Komitəsinin Mikroorqanizmlərin Respublika Kolleksiyası dövlət müəssisəsinin əməkdaşı professor Axan Abjalelov və baş elmi katibi Aslan Temirxanov Elm və Təhsil Nazirliyinin Mikrobiologiya İnstitutunda olublar.**

Mikrobiologiya İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Pənah Muradov qonaqları müəssisə ilə tanış edib, qurumun əsas fəaliyyət istiqamətləri və beynəlxalq əlaqələri, görülən işlər barədə məlumat verib.

Sonra qazaxıstanlı alimlər laboratoriyalarda aparılan elmi-tədqiqat işləri ilə tanış olublar. Tanışlıq zamanı alimlər öz elmi müəssisələrində görülən işlərlə bağlı məlumat verib və sualları cavablandırıblar.

Sonda müzakirələrin nəticəsi kimi Mikrobiologiya İnstitutu ilə Qazaxıstan Elm və Təhsil Nazirliyinin Elm Komitəsinin Mikroorqanizmlərin Respublika Kolleksiyası dövlət müəssisəsi arasında əməkdaşlıq haqqında müqavilə imzalanıb, sertifikatlar təqdim olunub.

***“Xalq qəzeti”***

### GÜN KİMİ ŞAXIYAN TÜRK

Köçəri söyləyib şərləmə türkü,
Türk tarix yaradan, damğa vurandı.
Torpağa sevgisi – bəşərin görkü,
Əkib-becərəndi, tikib-qurandı.

***

Qalalar ucaldıb, saraylar yapıb,
Könlü abad olub, yurdu şen olub.
Türkün dost üzünə açdığı qapı,
Düşmənə qazdığı məzar gen olub.

***

Doğudan-batıya yürüş eləyib,
Sürünə-sürünə ömür sürməyib.
Məni əyəməzsən, türkəm! – söyləyib,
Minnət götürməyib, söz götürməyib.

***

Beşikdən məzara əhdi pozmayan,
Zəfər nəğmələri oxuyandı türk!
Nağıl uydurmayan, yalan yazmayan,
Göydə Günəş kimi şaxıyandı türk!

***Əli NƏCƏFXANLI***

**Qardaş ellərdə toy adət-ənənələri**

**Şərq xalqlarının adət-ənənələri arasında toy çox mühüm hadisədir. Özbəkistanda çox şən, səsli-küylü, çoxsaylı qonaqların iştirakı ilə keçən toy böyük bir bayramdır. Uşaq anadan olandan ailədə gələcək toya hazırlıq başlayır, arxaya pul atılır, cehiz alınmağa başlanır. Özbəklərdə belə bir məsəl var: “Özbək toydan-toya yaşayır”.**

Özbək toyu mürəkkəb bir prosesdir, bir neçə hissəyə ayrılır: fatihə-toy, non-sindiriş (çörək kəsmə), nikah-toy və “gəlin salam”. Harada keçirilməsindən asılı olmayaraq, istər kiçik kənddə, istərsə də böyük şəhərdə, toy bir neçə gün

# “Özbək toydan–toya yaşayır”



davam edir və bütün toy ənənələrinə ciddi raiyət edilir. Onu da demək lazımdır ki, toy adət-ənənələri vilayətdən asılı olaraq fərqlənir. Bir vilayətdə keçirilən toyların digər vilayətdə baş tutan belə şənliklərlə oxşar və fərqli cəhətləri var.

Müasir dövrdə əksər dövlətlərdə olduğu kimi, Özbəkistanda da oğlanlar evlənmək üçün qızı özləri seçirlər. Lakin çox vaxt qızı seçmək vəzifəsini oğlanın anası, xalası, bibisi və ya vasitəçi qadınlar öz üzərinə götürür.

Evlənmək yaşına çatan oğlanın sevdiyi qız yoxdursa, oğlan anası öz tanışlarına xəbər göndərib kimin evində ərə getməli qız olduğunu öyrənir. Elçi gəlməzdən əvvəl oğlan anası qız anasına zəng edib gələcəkləri günü müəyyənləşdirir. Qız evində mütləq gözəl bir süfrə açılır. Qadınlar görüşür, oğlanın və qızın ailəsi, təhsili, iş yeri və s. haqqında söhbət edirlər. Mərasimin sonunda qız qonaqlarla salamlaşmaq üçün otağa girir və tez də çıxır. Oğlan anası qızı ilk dəfə görür. Elçilər gedəndən sonra qız evi oğlanın ailəsi, nəsli-nəcabəti haqqında məlumat toplayır. Oğlanla qızın bir-birinə uyğun olduğu fikrinə gəlsələr, gənclər tanış edilir.

Söhbətlərdə oğlan qızı, qız da oğlanı bəyənməsə, ana yenidən axtarışa çıxır. Bu proses münasib qız tapılana kimi davam edir.

tezdən verilir. Bəzən də elə olur ki, səhər toy plovu verilir, axşam isə toy keçirilir, bu eyni və ya fərqli məkanda ola bilər. Toy plovuna yalnız kişilər çağırılır, nəmər yığılmır, toya isə ən yaxın adamlar, dostlar dəvət alır. Toy plovu əvvəllər səhər saat 5-də başlanar, təxminən 7-də başa çatardı. Hazırda toy plovu səhər saat 6-da, 7-də, bəzən də daha gec başlanır. Özbəklər səhər plovuna mütləq gəlməlidirlər, gecikmək toy yiyəsinə təhqir kimi qəbul edilir. Bəzən toy plovuna gənclərə xeyir-dua vermək üçün imam da dəvət olunur.

Bir məqamı da xatırlamaq mütləq lazımdır. Toy plovu gündəlik bişirilən plovlardan fərqlənir. Belə ki, bu plov bir qayda olaraq quyruq yağında bişirilir. Bu plovun dadından doymaq olmur, bir yeyən bir də yeyim deyir.

Səhər tezdən plov yemək ənənəsi isə böyük sərkərdə Əmir Teymurun dövründən qalıb. Böyük sərkərdə yürüşlərə gedəndə aşpazlarına əmr edir ki, elə bir yemək hazırlasınlar ki, səhər tezdən yeyilsin və axşama kimi əsgər və zabitləri tox saxlasın, nədən ki, gün ərzində ordu ya yol gedir, ya da döyüşür. Bir də qaranlıq düşəndə yemək yada düşür. Beləcə, Əmir Teymura hörmət və ehtiram əlaməti olaraq özbək xalqı o ənənəni toy mərasiminə gətirib.

Toy günü qız evində günorta saat 1-2-də bəyin şərəfinə süfrə açılır. Buna “kuyov-navkar” ( bəy-nökər) deyilir. Oğlan evlərindən çıxanda anası onu arxadan səsləyir. Oğlan başını çevirir və anasının yanına gəlir. Bu, “oğlum, məni heç vaxt unutma” deməkdir. Oğlan anasına hədiyyə (qızıl, pul) verir, onu öpür və dostları, qohumları ilə karnay, surnay müşayiəti ilə qız evinə yollanır. Süfrə arxasında bəyə ballı şirniyyat təqdim olunur, o da öz növbəsində gəlini də şirniyyata qonaq edir. Bir adət də çox maraqlıdır. Bəylə gəlin təzə bir güzgüdə bir-birinə baxmalıdırlar. Yeməkdən sonra gənclər şəhərə çıxır, mənzərəli yerlərdə şəkil çəkdirirlər.



Oğlan qızı, qız isə oğlanı bəyəndisə, qızın anası oğlanın anasına ağ süfrə hədiyyə edir ki, bu da razılıq əlaməti sayılır. Oğlanın elçiləri bir daha gəlir, razılıq əldə olunduqdan sonra nişan günü müəyyən edilir. Bu mərasim “fatihə-toy” adlanır. Nişan vaxtı qadınlar və kişilər ayrı oturur, bir-birilərinə hədiyyələr verir, toy haqda konkret məqamları müəyyənləşdirirlər.

Ənənəyə görə iki çörək bölünür və bununla da gənclər nişanlanmış hesab olunur. Bəzi bölgələrdə oğlan evi qız evinə pul da verir.

Bundan sonra toya hazırlıq prosesi başlanır. Milli adət-ənənəyə görə toyun bütün xərcini oğlan evi çəkir. Lakin müasir böyük şəhərlərdə, əsasən də Daşkənddə xərc iki ailə arasında bölünür.

Valideynləri gəlinə cehiz verir və ailədə qız anadan olan gündən cehiz yığılmağa başlanır. Buraya müxtəlif paltarlar, parçalar, xalçalar, dəsmallar, yataq dəstləri, məişət əşyaları, qab-qacaq və s. daxildir.

Toya az qalmış qızın gedəcəyi evə rəfiqələri, qohumlar yığılır, stol açılır, mahnı oxunur, rəqs edilir, gəlinə hədiyyələr verilir.

Hər bir özbək toyu plovla başlanır. Ənənəyə görə toy plovu “nahar aşı” adlanır və qız evi tərəfindən hazırlanır. Ərzağı – düyü, ət, soğan və kökü oğlan evi qız evinə göndərir. Bütün gecə qız evində böyük qazanlarda plov bişirilir və bu mərasimdə aşpazlar bir qayda olaraq kişilər olur.

Kənd yerlərində qonaqlar evlərdə, yay aylarında həyətlərdə qəbul olunur. Toy plovu toya bir-iki gün qalmış səhər [...]

Toya 250-350 arası və daha çox qonaq dəvət olunur. Toy zamanı özbəklər öz qonaqpərvərliklərini bir daha nümayiş etdirirlər. Toya təbii ki, müğənnilər və müxtəlif rəqs kollektivləri dəvət olunur.

Bəzi bölgələrdə bəy toy salonuna tək daxil olur, yaxın qohumlarla görüşür, öz yerində oturur və qucağına bir uşaq verilir. Sonra bəy bayıra çıxır və gəlinlə birgə salona təntənəli surətdə girir. Gəlin üç dəfə baş əyib qonaqları salamlayır.

Toydan sonra öz evinə ayaq basan gəlini oğlanın ata-anası, qohumları qarşılayır. Evin qarşısına ağ örpək sərilir. Özbəklər buna pəyandaz deyirlər. Gəlin örpəyin üstündən keçərkən onun başına xırda pul və şirniyyat səpilir. Bu da bərəkət rəmzinə işarədir, yəni evin həmişə bərəkətli olsun.

Toyun səhərisi günü gəlin rəsmi olaraq yeni ailəyə qəbul olunur. Bu mərasim “gəlin, salam” adlanır. Oğlanın qohumları bir-bir yaxınlaşıb gəlinə öz hədiyyələrini təqdim edirlər. Milli paltarda olan gəlin iki əli ilə başındakı örpəyi tutub hər qonağa üç dəfə baş əyir. Bu mərasim üçün gəlinə bir neçə dəst paltar alınır və ya tikilir.

***Qulu KƏNGƏRLİ,***
**Daşkənd**

Yaddaşlarda yaşayanlar

# “Xalqların rəssamı” Mikayıl Abdullayev

## “Məktəbimiz bir yaş məndən böyükdür”

**1990-cı ilin sonları idi. Əzim Əzimzadə adına Bakı Rəssamlıq Məktəbinin 70 illiyi qeyd olunurdu. İlin, ayın çətin vaxtları olduğuna görə rəsmi və ya təntənəli tədbir keçirilməsə də, incəsənət adamları bu əlamətdar tarixə biganə qala bilmirdilər. Mənə bu yubileylə bağlı qəzet materialı hazırlamaq da məhz Xalq rəssamı, Əməkdar incəsənət xadimi, Rüstəm Mustafayev adına İncəsənət Muzeyinin direktoru Kazım Kazımzadənin baş redaktorumuz Nahid Hacıyevə zəng etməsindən sonra həvalə edilmişdi. Kazım müəllim redaktorumuza demişdi ki, müxbiriniz Mikayıl Abdullayevlə görüşsə, daha yaxşı faktlar öyrənə bilər: “Çünki mən Xalq rəssamıyam, Mikayıl isə “xalqların rəssamı”dır”. O, Mikayıl müəllimin Hindistanda da yüksək mükafatlara layiq görülməsini xatırladırdı.**





Mən Mikayıl Abdullayevə zəng elədim. Dedi: “Əlbəttə o barədə yazı hazırlamaq lazımdır. Mən istənilən suala cavab verməyə hazıram. Çünki o məktəb bizim sənət məbədimizdir. Həm də məktəbimiz bir yaş məndən böyükdür. Sabah saat 11-də “Kukla teatrı”nın yanındakı “Lalə” kafesində görüşək”. Sonradan öyrəndim ki, o həndəvərdə yaşayan Mikayıl müəllim bütün mətbuat təmsilçilərini məhz məni dəvət etdiyi yerdə qarşılayırmış.

### “Müxbir, çayı hansı mürəbbə ilə gətirsinlər?”

Bu sualı SSRİ Xalq rəssamı cəmi bir il qabaq təsis edilmiş qəzetin sadə müxbirinə verdi. Mən bir az tutuldum. Bir də soruşdu ki, gilas mürəbbəsi gətirsinlər, yoxsa çiyələk? Dedim, gilas. Dünən mənə demişdi ki, vaxtım azdır, amma, gəl, beş-on dəqiqə söhbət edək. İndi isə bir saatdan çox danışdı. Mat qalmışdım. İnsanda təhsil aldığı müəssisəyə nə qədər sevgi, məhəbbət, ehtiram ola bilərmiş?

Əzim Əzimzadədən danışdı, məktəbin görkəmli müəllimləri və tanınmış məzunları haqqında söz açdı, Azərbaycanın kənd zəhmətkeşləri ilə görüşlərini xatırladı, Hindistan səfərindən bəhs etdi. Həmin 60-70 dəqiqəlik söhbətdə bəlkə də on dəfə “bizim sənəd məbədimiz” ifadəsini işlətdi.

### “Dehlinin meri camaatdan soruşdu ki…”

Görkəmli rəssam Hindistan səfəri barədə danışarkən öz əsərlərindən və ya qəhrəmanlarından əvvəl həmin ölkədə Rəşid Behbudova olan sevgidən söz açdı: “Mer bir gün əvvəl elan verdiribmiş ki, mənim SSRİ-dən qonağım gəlir, onun xalqla görüşünü təşkil edirik. Bəlkə də on minlərlə insanın toplaşdığı (Hindistanda 20-30 min adam toplamağa nə var ki?) böyük bir meydandakı tribunaya ikimiz birlikdə qalxdıq. Mer kütləyə səsləndi: – Camaat, mənim qonağım Azərbaycandan gəlib.

Bəlkə də on dəqiqəyə qədər alqış səsləri kəsilmədi.

– Camaat, bilirsinizmi o mənə Bakıdan nə gətirib?

Meydan susdu. – O, mənə Bakıdan Rəşid Behbudovun salamlarını gətirib.

Meydan sanki daha susmadı. Rəşidi Hindistanda o qədər sevirlər”.

### Böyük rəssamlar həm də böyük insanlar idi

Yuxarıda qeyd etdiyim kimi, mənim Mikayıl Abdullayevlə görüşməyimi təxminən əlli il Milli İncəsənət Muzeyinin direktoru olmuş görkəmli rəssam Kazım Kazımzadə məsləhət görmüşdü. Mikayıl müəllim isə söhbətinin sonunda tövsiyə etdi ki, mütləq Kazım Kazımzadə ilə də görüşmək lazımdır: “O, bizim sənət məbədimizin ən görkəmli məzunlarındandır”.

Kazım müəllimlə də görüşdüm: “Bizim ata evimiz haqqında yazdığınıza görə çox sağ olun!” – deyə söhbətə başladı.

Mən onların sənətkarlığı kimi insanlıqlarının da bir-birindən üstün olduğunu gördüm. Ürək böyük olanda insan cəmiyyət qarşısında çox böyüyür.

Böyük rəssamla söhbətimizin sonunda xahiş etdim ki, öz sənəd məbədinizin yubileyini bir imzanızla təbrik edin, biz də o imzanı “Dalğa”nın oxucularına təqdim edək.

Üç-dörd sözlük təbrik yazdı və imzalayandan sonra soruşdu: “Müxbir, mənim imzamı neçə il saxlaya bilərsən?”

Cavab verə bilmədim. Elə indi, 32 il sonra, həmin imzanı “Xalq qəzeti”nin oxucularına təqdim edəndə də o suala cavab verə bilmirəm. Hər halda bu imzanı bir əsrin sonuncu onilliyində də qəzetdə vermişdim, o biri əsrin üçüncü onilliyinin əvvəlində də təqdim edirəm.

Allah Nahid Hacızadəyə, Mikayıl Abdullayevə və Kazım Kazımzadəyə min dəfələrlə rəhmət eləsin!

*İttifaq MİRZƏBƏYLİ,*
*“Xalq qəzeti”,*
*Əməkdar jurnalist*

**“Elm və təhsil” nəşriyyatı tərəfindən yeni tərtibatda hazırlanmış bu dəyərli vəsaitin müəllifi ixtisasca həkim, loqoped, psixoloq olmuş mərhum pedaqoji elmlər namizədi Muxtar Abbasovdur (1906–1962). Hələ 1948-ci ildə ilk dəfə Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatında buraxılmış kitab nitq nöqsanlılığının müalicəsi mövzusunda Azərbaycanda yazılmış ilk elmi nəşr olub.**

Elə buradaca təəssüf hissi ilə qeyd edək ki, kitab çıxandan düz 50 il sonra – 1998-ci ildə biri riyaziyyatçı, digəri isə mədəniyyətşünas olan iki “elm adamı” plagiatlıq edərək əsərdən gen-bol istifadə ilə onu öz imzaları ilə nəşr etdiriblər. Başqa sözlə desək, nə riyaziyyatçı kimi riyazi dəqiqlik prinsipinə məhəl qoyublar, nə də başqasının irsinə qarşı mədəni davranış nümayiş etdiriblər. Beləcə, bu dünyada varisi qalmayan müəllifin əsəri “Uşaq tərbiyəsinin bəzi aktual problemləri” adı altında mənimsənilib.

# Nitq qüsurlarının islahına aid kitab yenidən işıq üzü görüb

Nə yaxşı ki, haqq nazilsə də, üzülmədi və indi, budur, Muxtar Abbasovun halal haqqı olan “Təlim-tərbiyə işində nitq nöqsanlarının islahı (ata-ana və müəllimlərə rəhbər)” kitabı özünün ikinci həyatına qovuşdu. Nəşrin ön söz yerində onun redaktoru, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, mərhum professor Əbdüləzəl Dəmirçizadənin 1946-cı ildə yazdığı maraqlı qeydləri də yer alıb. Görkəmli alimin həmin qeydlərindən bəzi fikirləri yada salmaq yerinə düşər: “Dilimizdə nitq nöqsanlarının islahına aid olan bu ilk əsəri yazmaqla xeyirli bir işə qədəm basmış olan M.Abbasov yoldaşın əsərində bir sıra orijinal cəhətlər də vardır. Xüsusən burada Azərbaycan dilinə xas olan səslərə aid verilən izahat və bunlarla əlaqədar olan nöqsanların islahı yolları diqqəti cəlb edən və maraqlı cəhətlərdir”.

Muxtar Abbasov Bakıda ali tibb təhsili almış, uzun illər pedaqoji institutda müəllim işləmişdir. Onun adıçəkilən əsərdən başqa, əlifba və savad təliminin psixoloji aspektləri haqqında kitabları da olub. Muxtar Abbasov uzun illər uşaqların erkən yaşlarında təsadüf edilən pəltəklik, kəkələmə kimi qüsurların müalicəsi ilə məşğul olub və dürüst, aydın nitqli vətəndaşlar yetişdirməklə məşğul olmalı mütəxəssislərə belə bir yardımçı vəsait yazaraq araya-ərsəyə yetirib. Qeyd edək ki, onun sözügedən kitabı bu gün də nitq qüsurlarının müalicəsində aktuallığını itirməyib və indi latın qrafikası ilə təkrar çapı təqdirəlayiqdir.

Əsərdə verilən bir sıra sxemlər – səslərin məxrəcini göstərən palyatoqram və sair dərin təcrübi müşahidələrin nəticələri kimi dəyərli sayıla bilər. Müəllif loqopedlərin valideyn və müəllimlərlə qarşılıqlı fəaliyyəti zamanı nitq nöqsanlarının tezliklə islahı baxımından kitabın gərəkli olacağını bildirib.




Əsərdə həm nitq qüsurlarının profilaktikası, həm də yazı nöqsanları, disqrafiya və onların islahı üsulları, eşidən lallıq (alaliya) kimi məsələlər araşdırılıb. Əsəb sistemi və psixika əsasında baş verən nitq pozuntularından da bəhs olunub.

Kitabı ikinci nəşr çapa hazırlayan Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş mütəxəssisi, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, “Elm və həyat” jurnalının redaktor müavini Ülkər Hüseynovadır. Xüsusi vurğulamaq lazımdır ki, böyük zəhmət bahasına başa gələn kitabın nəfis tərtibatda yeni nəşri həm müəllif hüquqlarının bərpası və ədalətin zəfər çalması baxımından gərəkli bir addımdır. Vacib olan bir cəhət də bundan ibarətdir ki, aktuallığını itirməmiş araşdırmalar valideyn–müəllim–loqoped üçbucağının, eləcə də ali məktəb tələbələrinin geniş istifadəsinə verilən bir töhfədir.

*Ə.DOSTƏLİ,*
*“Xalq qəzeti”*

# Bakı–Sumqayıt qatarlarında “biznes sinif” “ekonom vaqon”a çevrilir

## Bununla marşrutda sıxlıq aradan qalxacaq

**İyul ayının 1-dən etibarən Bakı–Sumayıt–Bakı qatarlarında biznes sinif vaqonlarının ləğv edilərək, “ekonom vaqon” kimi istifadəsi nəzərdə tutulur. Səbəb biznes vaqonlara tələbatın aşağı olması, ekonom vaqonlarda isə sərnişin sıxlığının müşahidə edilməsidir. Qərarın qəbulundan sonra sərnişin sıxlığının aradan qalxacağı gözlənilir.**



Məsələ ilə bağlı “Azərbaycan Dəmir Yolları” QSC-nin Mətbuat katibliyi şöbəsinin rəisi Sənubər Nəzərova bildirdi ki, qısa məsafələrə gediş zamanı biznes sinif vaqonlarına tələbat çox olmur: “Bu səbəbdən də onlar ekonom sinif ilə əvəzlənəcək. Bakı–Sumqayıt–Bakı xətti üzrə biznes sinif kimi fəaliyyət göstərən, 61 və 88 nəfərlik olmaqla iki tip vaqon mövcuddur. Həmçinin onların salonları da genişdir. Bu vaqonların ekonom sinif kimi istifadə edilməsi imkan yaradır ki, salona daha çox sərnişin daxil olsun. Məsafələr qısa olduğundan sərnişinlər həm oturaraq, həm də ayaq üstə gedə bilərlər. Beləliklə, biz gün ərzində həmin istiqamətlərdə, əlavə olaraq, yüzlərlə sərnişin daşıya biləcəyik. Hazırda biznes vaqonla gediş haqqı 2 manat, ekonom vaqonla isə 1 manat təşkil edir. İyulun 1-dən etibarən bütün qatarların tarifi 1 manat olacaq”.

QSC rəsmisi onu da vurğuladı ki, biznes sinif qatarların fəaliyyəti yalnız Abşeron dairəvi dəmir yolu marşrutu üzrə hərəkət edən qatarlarda ləğv ediləcək. Bölgələrə gedən qatarlarda bu tip vaqonların fəaliyyəti davam edəcək.

QSC-nin Mətbuat katibliyi şöbəsinin rəisi Sənubər Nəzərova iyulun 1-də Azərbaycan dəmir yollarında nəzərdə tutulmuş digər bir dəyişiklik barəsində də danışdı. Bildirdi ki, bu dəyişiklik birdəfəlik biletlərin satışının



dayandırılması olacaq. Çünki həmin, biletlər istifadə etdikdən sonra hara gəldi atılır ki, bu da ətraf mühiti, qatarları çirkləndirir.

ADY rəhbərliyi bu addımı atmaqda əsas məqsədi, rəqəmsal ödənişlərin genişləndirilməsini, köşklərdə və kassalarda növbələrin aradan qaldırılmasını, kağız məmulatlarından istifadənin minmuma endirməsini təmin etməkdir. Qurum rəsmisi qeyd etdi ki, müvafiq marşrut üzrə qatarlarda gediş haqqı təmassız ödənişi dəstəkləyən bank kartı və ya ADY-yə məxsus kartlarla ödənilə bilər.

ADY-yə məxsus gediş kartlarını Abşeron dairəvi dəmir yolu marşrutu üzrə fəaliyyət göstərən bütün stansiyaların kassalarından əldə etmək olar. Kartın qiyməti 2 manatdır. Sərnişinlər ADY gediş kartlarından istifadəni dayandırdıqları təqdirdə onları kassalara təhvil verməklə ödənilmiş və balansda olan məbləği geri ala bilərlər.

Nəqliyyat eksperti Elməddin Muradlı bu addımı müsbət qiymətləndirdi. Ekspert bildirdi ki, burada əsas hədəf pul qazanmaq yox, tıxacın qarşısını almaq, insanları vaxtında mənzil başına çatdırmaqdır. ADY da bu istiqamətdə tədbirlər görür: “Bakı–Sumqayıt–Bakı qatarları vasitəsilə sərinişin daşınmada son vaxtlar xeyli artım müşahidə olunur. Çünki nəqliyyat vasitəsi kimi qatar daha əlverişlidir”.



Elməddin Muradlı maraqlı təkliflərlə də çıxış etdi: “Qatarların intervalı qısaldıla, vaqonların sayı artırıla bilər. Lakin burada stansiyaların tutumu nəzərə alınmalıdır. Bunlardan başqa, gələcəkdə Bakı–Sumqayıt–Bakı qatarını daha da şaxələndirməklə, Ceyranbatan, Saray ərazilərində də stansiyalar tikmək olar.”

Qeyd edək ki, Abşeron dairəvi dəmir yolu marşrutu gündəlik 25-30 min nəfərə xidmət göstərir. Ümid edirik ki, verilən qərar özünü doğruldacaq və qatarlarda müşahidə olunan sıxlıq aradan qalxacaq.

*R.MƏHƏRRƏMOV*

1 sual – 1 cavab

# Əlilliyi olan uşaqlar övladlığa necə verilir?



**Yəqin ki, cəmiyyətdə uşaqları övladlığa götürəcək şəxslərin onlara qulluq üçün nə qədər aylıq sosial ödənişlərlə təmin olunacağı oxucuları da maraqlandırır. Bu sualla bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən aldığımız məlumatda bildirilir:**

– Hazırda valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün sosial xidmət müəssisələrində əlilliyi olan 29 uşaq övladlığa verilməyə hazırdır. Onlar barədə məlumat Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin “Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə” altsisteminə daxil edilib. Həmin uşaqları övladlığa götürəcək şəxslər aylıq sosial ödənişlərlə təmin olunacaq. Sosial xidmət müəssisələrindən götürülən əlil uşağa görə onu övladlığa qəbul edən şəxsə aylıq 600 manat müavinət verilməsi nəzərdə tutulub.

Bununla yanaşı: uşağın orqanizminin funksiyalarının pozulması: 81–100 faiz olduqda – 270 manat müavinət, 200 manat (gözdən əlilliyə görə 300 manat) təqaüd və həmin uşağa qulluğa görə 100 manat təqaüd; 61–80 faiz olduqda – 220 manat müavinət və uşağa qulluğa görə 100 manat təqaüd; 31–60 faiz olduqda – 150 manat müavinət və uşağa qulluğa görə 100 manat təqaüd nəzərdə tutulub.

*Zərifə BƏŞİRQIZI,*
*“Xalq qəzeti”*

BEYNƏLXALQ HƏYAT

# Türkiyənin yeni hədəfləri bəllidir

## Onlara çatmaq, sadəcə, zaman məsələsidir

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın son prezident seçkilərində parlaq qələbəsi bu görkəmli siyasətçinin şəxsiyyətinə və fəaliyyətinə olan marağı beynəlxalq səviyyədə daha da artırıb. Qardaş ölkə yüksək seçki mədəniyyəti və xarizmatik və müdrik liderinə saygısı ilə gündəmə gəlib və böyük nüfuz qazanıb.**




Bəs, rəsmi Ankaranın qazandığı siyasi dividendləri yeni iqtisadi yüksəlişə çevirmək mümkün olacaqmı? Dünyanın Türkiyədən budəfəki gözləntiləri məhz bununla bağlıdır. Daha sadə dildə və konkret desək, Ərdoğan Türkiyəsi yaxın aylar, illər ərzində bu gün üzləşdiyi iqtisadi və sosial çətinliklərin öhdəsindən gələ biləcəkmi?

Əlbəttə, gələcək! Çağdaş Türkiyənin qarşısında duran problemlər subyektiv deyil, bir çox obyektiv səbəblər üzündən yaranıb. Məlum olduğu kimi, qardaş ölkənin iqtisadiyyatında turizmin xüsusi yeri var. Son üç-dörd ildə pandemiya səbəbindən qlobal turizm sənayesində, eləcə də Türkiyədə böyük çətinliklər meydana çıxıb. Lakin artıq bu istiqamətdə canlanma müşahidə olunur, deməli, büdcə gəlirlər artacaq.

Digər bir problem qaçqınlarla bağlıdır. Müxtəlif illərdə İraqda, Suriyada, Liviyada gedən və bəzi ölkələrdə hələ də davam edən vətəndaş müharibələri səbəbindən Türkiyəyə son illər ərzində milyonlarla qaçqın axışıb. Bəzi mənbələr hazırda ölkədə 13 milyona yaxın miqrantın məskunlaşdığını iddia edir. Bu gün Türkiyə dünyada ən çox qaçqına qucaq açan ölkədir.

Türkiyə hökuməti və xalqı böyük humanizm nümayiş etdirərək "qaçqın yükü"nün ən ağır hissəsini öz çiyninə götürüb. Lakin hökumət problemin həlli üçün əlindən gələni edir. Son iki ildə 600 minə yaxın suriyalı təhlükəsiz ərazilərə köçürülüb və bu proses davam etdirilir. Göründüyü kimi, bu ağır problem də tədricən öz həllini tapmaq üzrədir.

Bu il fevralın 6-da Türkiyədə baş verən dəhşətli zəlzələ də ölkə iqtisadiyyatına ağır zərbə vurub. Faktiki olaraq, 100 min kvadratkilometr ərazidə yüzlərlə şəhər və minlərlə kənd dağılıb. 50 mindən çox sakin həyatını, on minlərlə insan əmək qabiliyyətini itirib. Bütün bu dağılmış əraziləri tezliklə bərpa etmək lazım gələcək və Türkiyə hakimiyyəti bu istiqamətdə ciddi işlər görür.

Türkiyə Prezidenti öz yeni komandasını yaradıb və ictimaiyyətə təqdim edib. Komanda üzvlərinin hər biri səriştəli və dövlətçiliyə sədaqətli kadrlardır, cəmiyyətdə hörməti və nüfuzu olan şəxslərdir. İqtidar böyük məsuliyyət hissilə öz üzərlərinə düşən vəzifələrin icrasına başlayıb.

Dövlət başçısı bu günlərdə Ankarada Nazirlər Kabinetinin səkkiz saat davam edən iclasını keçirib və qeyd edib ki, onun komandasının əsas məqsədi Türkiyəni dünyanın 10 ən güclü iqtisadiyyata malik ölkəsindən birinə çevirməkdir.

Türkiyə Prezidenti yeni sivil Konstitusiyanın işlənib hazırlanmasının və ümumxalq müzakirəsinə verilməsinin əhəmiyyəti barədə də danışıb. R.T.Ərdoğan vurğulayıb ki, "Biz Cümhuriyyətin yaradılmasının ikinci yüzilliyinə qədəm qoyuruq. Bizim sivil, demokratik prinsiplərə əsaslanan konstitusiyaya ehtiyacımız var".

Dövlət başçısının sözlərinə görə, Əsas Qanunun yeni mətnində cəmiyyətin bütün təbəqələrinin hüquqları nəzərə alınmalıdır. Türkiyə planetin ən sivil, demokratik və ədalətli ölkəsi olmalıdır! Xatırladaq ki, mövcud konstitusiya 1980-ci ildə baş verən hərbi çevrilişdən sonrakı illərdə qəbul edilib və bir çox maddələrin yenilənməsi tələb olunur.

R.T.Ərdoğan ölkədə parlament, yaxud prezident üsul-idarəçiliyinin üstünlüyü ilə bağlı yaranan fikir ayrılıqlarına da münasibət bildirərək deyib: "Bizim xalqımız bu il mayın 14-də və 28-də prezident seçkilərində öz siyasi iradəsini nümayiş etdirməklə, köhnə sistemə keçməyin əleyhinə çıxıb". Yeri gəlmişkən, 1917-ci ildə Türkiyədə keçirilən ümumxalq referendumunda seçicilərin çoxu ölkədə prezident üsul-idarəçiliyinə səs veriblər. Son altı ilin təcrübəsi bu addımın daha düzgün olduğunu sübut edir.

Prezident çıxışında 28 may seçkilərindən sonra ilk səfərlərini Şimali Kipr Türk Respublikası və Azərbaycana etdiyini vurğulayıb. Deyib ki, Ankara bundan sonra da Şimali Kiprdə yaşayan soydaşlarımızın probleminin həlli hər cür dəstəyini göstərəcək: "Biz heç cür razı ola bilmərik ki, bizim Şimali Kiprdə yaşayan türklərin hüquqları ilə manipulyasiya etsinlər.

R.T.Ərdoğan qardaş Azərbaycana səfəri zamanı isə ölkə Prezidenti İlham Əliyev ilə ikitərəfli əlaqələrin genişlənməsi istiqamətində vacib qərarlar qəbul edildiyini qeyd edib. Vurğulayıb ki, tərəflər qarşılıqlı ticarət dövriyyəsini 15 milyard dollara çatdırmaq əzmindədir. Dövlət başçısı deyib: "Türkiyə–Azərbaycan birgə universitetinin yaradılması əsas prioritetlərdən biridir. Ankara Cənubi Qafqazda davamlı sülhün bərqərar olunması istiqamətində öz səylərini bundan sonra da davam etdirəcək".

Türkiyə lideri Zəngəzur dəhlizinin açılmasının vacibliyini, bu layihənin regionun bütün ölkələri və xalqları üçün böyük önəm daşıdığını da xüsusi vurğulayıb. Onun sözlərinə görə, müəyyən çətinliklərə rəğmən, bu dəhliz mütləq açılacaq və regionun inkişafına, davamlı sülhün bərqərar olunmasına böyük töhfə verəcək.

*Məsaim ABDULLAYEV,*
*"Xalq qəzeti"*

# Ukrayna cəbhədə təşəbbüsü ələ keçirir



**Ukrayna Silahlı Qüvvələrinin əks-hücum əməliyyatı davam edir. İlk günlərdə itkilər böyük olsa da, Ukrayna ordusu Rusiyanın əsas müdafiə xəttinə çatmayıb.**

Eyni zamanda, Ukrayna ordusunun hücumlarını dəf edərkən Rusiya piyada qoşunlarının daha böyük itkilər verdiyi bildirilir. Könüllü təslim olan və jurnalistlərlə söhbət edən əsirlər rusların əhval-ruhiyyəsinin aşağı olduğunu bildirirlər. Dağlıq Altaydan olan Anatoli adlı müqaviləli əsgər deyib ki, onun bölməsindəki insanlar ukraynalıların irəliləyişini gözlədikləri günlərdə demək olar ki, bir-biri ilə danışmayıblar. "Hər kəs susurdu, ukraynalı hərbçilərin hansı tərəfdən gələcəklərini düşünürdük. Biz çox qorxurduq".

Anatoli daha sonra bildirib: "Heç kim ölmək istəmirdi. Ümid edirdik ki, əks-hücum olmayacaq. İki gün ərzində hər şey sakit idi. Amma sonra güclü hücum başladı. Hər şey xaotik idi, güllələr, mərmilər başımızın üstündən uçurdu, səngərdə olanlar qaçırdılar. Artilleriya və minaatanların atəşi arasındakı fasilədə tarlalara baxaraq düşməni tapmağa çalışırdım. Amma heç kimi görmədim... Bir neçə dəqiqədən sonra Ukrayna Silahlı Qüvvələri meşə zolağına girdi və mənim olduğum səngərə əl qumbaraları atdılar. Yanımda olan beş nəfər, o cümlədən yaxın dostum Georgi öldürüldü. Mən səngərdən çıxaraq əllərimi qaldırıb qışqırmağa başladım: Təslim oluram, təslim oluram!"

Öz növbəsində, Uzaq Şərqdən olan rusiyalı çağırışçı Dmitri isə əlavə edib ki, uzun müddət səngərdə olsa da, növbəsi dəyişdirilməyib. "Bizim bölmədə tanklar və zirehli maşınlar üçün ekipajlar çatışmırdı. Onlar (Ukrayna Silahlı Qüvvələri - UNİAN) tanklardan, minaatanlardan, artilleriyadan bizə atəş açırdılar", - deyə o bildirib.

Rus qoşunları isə Ukrayna hərbçilərinin irəliləməsini dayandırmaq üçün Ukraynanın cənubuna 20-dən çox helikopter yerləşdirib. "Ukrayna əks-hücum əməliyyatlarına başlayandan bəri Rusiya bölgədəki hücum helikopter qüvvələrini gücləndirib", – Britaniya Müdafiə Nazirliyi "Twitter"-də bildirib.

Kəşfiyyat rəsmilərinin fikrincə, helikopterlər işğalçılara Ukraynanın cənubunda qismən üstünlük əldə etməyə kömək edib. Yer hədəflərinə qarşı daha uzaq mənzilli raketlərdən istifadə edən hücum helikopterləri döyüşlərdə güclü rol oynayıb. Bu, Kiyevin hücumunu bir qədər səngidib.

Ukraynanın hücumunun tez bir zamanda uğura çıxaracağı isə mütləq deyil, münaqişə uzun müddət davam edə bilər. "Ukraynada dərhal həlledici nəticənin olacağı barədə təminat yoxdur. Biz bunu dərk etməliyik. Biz dərk etməliyik ki, Ukraynanı tələb olunan qədər dəstəkləməliyik, çünki söz vermişik", – Böyük Britaniyanın xarici işlər naziri Ceyms Kleverli deyib.

Ukrayna Müdafiə Nazirliyi isə bununla belə bildirib ki, əks-hücum əməliyyatı uğurludur, müdafiə qüvvələri bütün istiqamətlərdə iki kilometrə yaxın məsafədə irəliləyir və orada möhkəmlənirlər. "Son 24 saat ərzində Ukrayna hərbçiləri Tavriçesk istiqamətində irəliləyərək ruslara xeyli itki verib. Xüsusilə, rusların beşdən çox bölüyü və 90-a yaxın rus texnikası məhv edilib",– "Tavriya" əməliyyat-strateji qoşun qruplaşmasının komandiri, briqada generalı Aleksandr Tarnavski bildirib.

Müdafiə nazirinin müavini Vladimir Qavrilovun bildirdiyinə görə isə, hazırda Ukrayna ordusu ruslarla müharibədə təşəbbüsü ələ alır. "Amma qələbə üçün düşmənə uzaqdan zərbələr endirməliyik. Bunun üçün isə uzaqmənzilli silahlara ehtiyacımız var. Ukraynanın bütün hərbi planları hesablamalara uyğun gedir. F-16 qırıcı təyyarələrinin yaxın zamanlarda Ukraynaya təhvil veriləcəyinə inanırıq".

Hadisələrin bu fonunda Rusiya qoşunları Ukraynaya yenidən hava zərbələri endirib. Bu dəfə daha çox ballistik raketlərdən istifadə olunub. Rusiyanın 6 "Kinjal", 6 "Kalibr" tipli qanadlı raketləri və 2 pilotsuz uçuş aparatı (PUA) zərərsizləşdirilib. Ən çox isə Xersonda dağıntılar olub. Nəticədə 2 nəfər mülki şəxs həlak olub, 25 sakin yaralanıb.

*Pünhan ƏFƏNDİYEV,*
*"Xalq qəzeti"*

İDMAN

# Komandamız III Avropa Oyunlarına hazırdır

## Azərbaycan ilk onluğa düşməyə əsas namizədlərdəndir

**İlk məşəlini "Odlar yurdu" Azərbaycanda alovlandıran "qoca qitə"nin adı ilə bağlı növbəti – III Avropa Oyunlarının başlamasına cəmi 2 gün qaldı. Tarixi Bakıda başlayan dördilliyin möhtəşəm Oyunları Avropa idmanının inkişafına yeni töhfələr verməyə hazırlaşır.**



Bəs Azərbaycan komandası iyunun 21-də Polşanın Krakov şəhərində start götürəcək yarışlara hazırdırmı? Budəfəki Avropa Oyunlarında komandamızın 86 üzvü idmanın 13 növü – oxatma, badminton, çimərlik futbolu, boks, qılıncoynatma, cüdo, karate, muay-tay, kikboksinq, padel, atıcılıq, taekvondo və triatlon üzrə yarışlarda mübarizə aparacaqlar. Azərbaycan III Avropa Oyunlarında 86 idmançı ilə təmsil olunacaq. Bəs onlardan hansı nəticələri gözləyirik?



Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə jurnalistlərə müsahibəsində III Avropa Oyunlarının proqramına salınan idman növlərinin bizim üçün o qədər də uğurlu olmadığını deyib. Bunu onunla əsaslandırıb ki, əsas idman növlərimiz Polşada təmsil olunmayacaq. Bununla belə, vitse-prezident bildirib ki, Azərbaycan millisi ölkələrin sıralamasında ilk onluğa düşməyə əsas namizədlərdəndir: "Biz buna layiqik və inanırıq ki, komandamız uğurlu çıxışı ilə xalqımızı sevindirəcək".

Qeyd edək ki, əsas dayaq idman növlərimizdən biri güləş budəfəki yarışda yer almayıb. Onu da xatırladaq ki, "Bakı–2015"-də qazanılan 56 medalın 6-sı qızıl olmaqla 15-i güləşçilərin payına düşüb. Minsk Oyunlarında isə 28 medalın 10-nunu güləşçilərimiz qazanıblar. İkinci Avropa Oyunlarında 5 qızıl medaldan 3-nə pəhləvanlarımız sahib olmuşdular. İlk Avropa Oyunlarında ümumi hesabda ikinci, növbəti yarışda isə 10-cu pillədə qərarlaşdıq.

Komandaların hazırlığına gəldikdə, birinci oyunlarda güləşdən sonra ən yaxşı nəticə qazanan boks komandamız (11 medal) Minskdə 2 medala sahib olmuşdu. Yığmanın məşqçisi Nəriman Abdullayev "Xalq qəzeti"nə müsahibəsində budəfəki yarışlara hazırlıq məqsədilə həm kişi, həm də qadın boksçulardan ibarət milli komandalarımızın təlim-məşq toplanışı ölkə xaricində keçdiklərini dedi: "Komandamız Assizidə İtaliya, Avstriya, Belçika, Serbiya, İrlandiya, Böyük Britaniya, Niderland, Estoniya, Finlandiya və Slovakiya ilə birgə hazırlıq keçdi. Boksçularımız yaxşı formadadırlar. Ümid edirik ki, nəticələr yaxşı olacaq".

Dayaq idman növlərimizdən biri olan taekvondo üzrə yığmamızın hazırlığı ilə maraqlandıq. Taekvondo Federasiyasının vitse-prezidenti Niyaməddin Paşayev həm kişi, həm də qadın komandalarımızın Avropa Oyunlarına hazırlığı ilə bağlı son məşqləri keçirildiyini diqqətə çatdırdı. Qeyd etdi ki, komandanın üzvlərinin öz potensialından maksimum istifadə etmələri üçün lazımi işlər görülür. Bakıda keçirilən dünya çempionatında uğursuzluqdan sonra yığma özünü toparlayıb yaxşı nəticə göstərməlidir. Vitse-prezident komandanın üzərinə düşən vəzifəni layiqincə yerinə yetirəcəyinə ümid etdiyini bildirdi.

"Minsk-2019"da 5 medal qazanan cüdoçularımız bu dəfə də nailiyyətləri ilə xalqımızı sevindirmək istəyirlər. Azərbaycan Cüdo Federasiyasının mətbuat xidmətinin rəhbəri Ülkər Abbasova 16 cüdoçunun (6 kişi, 5 qadın) ölkəmizi Polşada təmsil edəcəyini bildirdi: "Oyunlara hazırlıq məqsədilə təlim-məşq toplanışı uzun zamandır davam edir. İdmançılarımızın oyunlara maksimum səviyyədə hazırlaşması üçün federasiya tərəfindən bütün tədbirlər görülüb. Yığmamızdan yaxşı nəticələr gözləyirik".

Kişi karateçilərdən ibarət Azərbaycan yığma komandasının baş məşqçisi Qurban Tağıyev Avropada kumite növü üzrə yarışlara ən çox lisenziyanı komandamızın qazandığını bildirdi: "Həm qadın, həm də kişi karateçilərimizə ümidimiz çox böyükdür. Düzdür, idmanda qələbələr olduğu kimi, məğlubiyyətlərdən də bəzən qaçmaq olmur. Komanda yüksək ruha köklənib. Polşaya qələbə üçün gedəcəyik".

İkinci Avropa Oyunlarının qalibi və üççat Avropa çempionu Asiman Qurbanlı Polşada keçiriləcək Oyunlarda ölkəmizi təmsil edəcək. İdmançı yarışların komandamız üçün yaxşı keçəcəyinə inanır: "Gündə 2, bəzən 3 dəfə məşq edirik. Yarışda potensialımızdan maksimum istifadə etməyə çalışacağıq. Yüksək nəticə ilə ölkəyə qayıdacağımıza ümid edirəm".

Kikboksinq, atıcılıq, qılıncoynatma, badminton, muay-tay və digər idman idman növləri üzrə də komandalarımızın hazırlığı ilboyu diqqət mərkəzində olub ki, onlardan da yaxşı nəticələr gözləyirik.



Xatırladaq ki, 2023-cü il üçün Azərbaycan milli komandalarının vahid idman geyim forması ilk dəfə Polşada keçiriləcək III Avropa Oyunlarında istifadə olunacaq. İdman formasının təqdimat mərasimində çıxış edən gənclər və idman naziri Fərid Qayıbov deyib: "Dövlətimizin başçısı İlham Əliyevin idmanla bağlı tapşırıqları var. Bunlardan biri də vahid idman formasının olması idi. Artıq idmançılarımızın gözəl və ən əsası keyfiyyətli idman geyimi var. İdmançılarımız fəxr edə bilərlər ki, milli brendimizlə beynəlxalq arenalara çıxacaqlar".

Komandamız artıq Oyunlara hazırdır. Azərbaycan nümayəndə heyəti bu nüfuzlu yarışda iştirak etmək üçün iyunun 20-də çarter reysi ilə Polşaya yola düşəcək.

Belə mötəbər yarışlarda böyük qələbə əldə etmək üçün güc və peşəkarlıqla yanaşı, qələbə əzmi, fədakarlıq və Vətənə sevgi lazımdır. İnanırıq ki, həmişə böyük əzmkarlıqla mübarizə aparıb adını ən güclü komandalar sırasına yazdıran vətənpərvər idmançılarımız bu dəfə də Vətənə qələbə ilə qayıdacaqlar!

*Leyla QURBANOVA,*
*"Xalq qəzeti"*

SON SƏHİFƏ
Xalq qəzeti
Xalqın qəzeti!
№ 128 (30244) 18 iyun 2023-cü il, bazar
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

# Futbol yığmamızın qələbəsi

**19 yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandası Gürcüstanın müvafiq yaş qrupundan ibarət yığması üzərində 2:1 hesablı qələbə qazanıb.**



U-19-un qollarını 45+1-ci dəqiqədə Sadiq Şəfiyev, 82-ci dəqiqədə isə Ravil Qafarov vurublar.

Qeyd edək ki, bu oyun Qəbələdə təlim-məşq toplanışında olan komandamızın hazırlıq çərçivəsində ilk yoldaşlıq görüşü olub.

Millimiz hazırlıq çərçivəsində növbəti oyununu iyunun 20-də Belarusun U-19 komandasına qarşı keçirəcək.

# Estoniyada gümüş medal



**Atletika üzrə yığma komandamızın üzvü Anna Skidan Estoniyanın Yıhvi şəhərində Dünya Kontinental Turu - Bürünc səviyyədə keçirilən Heino Lipp memorialında uğurla çıxış edib.**

İdmançı beynəlxalq yarışda çəkicatma növündə gümüş medal qazanıb. 31 yaşlı idmançı 68,67 metr göstərici ilə buna nail olub.

# Cüdoçumuz “Böyük dəbilqə”də bürünc aldı

**Azərbaycan cüdoçusu Gültac Məmmədəliyeva “Böyük dəbilqə” turnirində bürünc medal qazanıb. Turnirdə 52 kiloqram çəki dərəcəsində çıxış edən təmsilçimiz həlledici mərhələdə belçikalı Amber Ryheuli məğlub edib.**

Qazaxıstanın paytaxtı Astanada keçirilən yarışda 42 ölkədən 300-dən çox idmançı medallar uğrunda mübarizə aparır.

*Leyla SABİRQIZI, “Xalq qəzeti”*



Texnologiya yenilikləri



# “Google Lens” dəri xəstəliklərini təyin edəcək

**Gördüyümüz fotolardakı obyektləri, mətnləri təyin etməklə yanaşı, istifadəçiyə bir çox faydası toxunan “Google Lens” servisinin funksionallığı genişləndirilib. Belə ki, servis sağlamlıqla bağlı yeni funksiya əldə edib. Qeyd edək ki, tərtibatçılar “Google Lens”lə çəkilmiş foto vasitəsilə dəri xəstəliklərini təyin etməyi öyrəniblər. Sözügedən funksiya rəsmən təsdiq edilməsə də, istifadəçiyə hansı tibbi mütəxəssisə müraciət eedəcəyini müəyyən etməkdə istiqamət verə bilər.**

Yeni funksiyadan istifadə etmək üçün istifadəçi ilk növbədə dərinin problemli sahəsinin fotosunu çəkməli və “Google Lens”ə yükləməlidir. Daha sonra tətbiqdə axtarış prosesinə start verərək yüklənmiş fotonun digər fotolarla vizual uyğunluqlarını axtaracaq. Axtarış öz növbəsində digər xəstəliklərin simptomlarını da təqdim edə bilər. Bu, ilk növbədə istifadəçinin sağlıq problemini sözlərlə düzgün şəkildə ifadə edə bilmədiyi təqdirdə faydalı ola bilər.

*Səadət RZAYEVA, “Xalq qəzeti”*

# Süni intellekt bizi hara aparır?



**Məhşur texnologiya şirkətlərinin rəhbərləri arasında sorğu aparılıb. Nəticədə onlar yaxın onilliklərdə süni intellektin insan sivilizasiyasını məhv edəcəyi ehtimalına inandıqlarını bildiriblər. Sorğuda “Walmart”, “Coca-Cola”, “Xerox”, “Zoom” şirkətlərinin və həmçinin əczaçılıq, media və istehsalat şirkətlərinin rəhbərləri də iştirak edib.**

Onlardan 34 faizi qeyd edib ki, bu təhlükə artıq 10 ildən sonra baş verə bilər. Bunun əksinə olaraq, 58 faizi isə bu cür ehtimal, ümumiyyətlə, heç vaxt baş verməyəcək və onlar bu məsələyə görə narahat deyillər. Bununla yanaşı rəhbərlərin 42 faizinin fikrincə süni intellektlə ilə bağlı düşünülən təhlükələr olduqca şişirdilib.

*S.VAHİDQIZI, “Xalq qəzeti”*

Sosial şəbəkələrdən seçmələr

# “Səni anlayıram…”



**Dünən “Facebook” dostluğumda olan bir ziyalı xanımın aşağıdakı məzmunda paylaşımını oxudum: “Səni anlayıram…” deməklə, biz ətrafımızdakı insanların fikir və düşüncələrinə haqq qazandırır, onların dərdlərinə şərik çıxır, sevinclərini paylaşırıq. Bundan yaxşı nə ola bilər ki?**

“Səni anlayıram…” deyən insanlara dahi ingilis dramaturqu Vilyam Şekspir isə belə cavab verib: “O şeyi anlamaq mümkündür ki, onu hiss edirsən!”

Düşünürəm ki, dahi qələm sahibi tamamilə haqlıdır: insanı hiss etmədən, onun hiss və həyəcanını duymadan anlamaq çətindir.

Böyük el sənətkarı Aşıq Ələsgər necə də gözəl deyibdir:

*Can deməklə candan can əskik olmaz,*
*Məhəbbət artırar, mehriban eylər.*
*Çor deməyin nəfi nədi dünyada,*
*Abad könülləri pərişan eylər.*

Gəlin, bir-birimiz hiss edək, anlayaq və sevək. O zaman həyat hər birimiz üçün maraqlı və cazibədar olacaq!.

*Təqdim etdi:*
*M.HACIXANLI, “Xalq qəzeti”*

Mədəniyyət xəbərləri

# “Art Studio”da “35 ildən sonra”



**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında İsveç dramaturqu Benqt Alforsun “İllüziyaçılar” pyesi əsasında hazırlanan “35 ildən sonra” adlı tamaşanın premyerası təşkil olunub.**

Teatrın yeni yaradılmış “ArtStudiya”sında hazırlanan “35 ildən sonra” tamaşasının quruluşçu rejissoru Müşfiq Əliyev, quruluşçu rəssamı Dmitri Afanasyev, musiqi tərtibatçısı Zaur Rəşidovdur. Səhnə əsərində əsas rolları Əməkdar artist Elnur Bəhramxan və digər aktyorlar Kərəm Hadızadə, Zümrüd Quliyeva ifa ediblər.

Qeyd edək ki, bir hissəli səhnə əsəri ömrünün qürub çağını yaşayan aktyorun həyatından bəhs edir. Uzun illərdən sonra yeganə qızı ilə qarşılaşan ata onun varlığından həyəcanlanır, həm də xoşbəxt olur. Müəllif ata və qız münasibətlərinin fonunda ailənin, doğma əlaqələrin qorunmasının vacib olduğunu təqdim edir.

*Mahmud QƏRİBOV, “Xalq qəzeti”*

# “Ah, bu uzun sevda yolu” Gəncədə

**Mədəniyyət Nazirliyi ümummilli lider Heydər Əliyevin anadan olmasının 100, Azərbaycan peşəkar milli teatrının yaranmasının 150 illiyinə həsr edilmiş silsilə tədbirlər çərçivəsində regionlara təşkil olunan qastrol səfərlərini davam etdirir.**



Akademik Milli Dram Teatrının kollektivi “Ah, bu uzun sevda yolu” tamaşasını Gəncə Dövlət Dram Teatrında nümayiş etdirib. Dramaturq Əli Əmirlinin eyniadlı əsəri əsasında Mədəniyyət Nazirliyinin sifarişi ilə hazırlanan səhnə əsərinin bədii rəhbəri və quruluşçu rejissoru mərhum rejissor, Xalq artisti Azər Paşa Nemətov, rejissoru Anar Sadıqov, rəssamı Əməkdar mədəniyyət işçisi İlham Elxanoğlu, bəstəkarı Xalq artisti Siyavuş Kərimidir.

Rolları Xalq artisti Hacı İsmayılov, Əməkdar artistlər Anar Heybətov, Münəvvər Əliyeva, Ayşad Məmmədov, Elnar Qarayev, Elşən Rüstəmov, Mehriban Xanlarova və digər aktyorlar İlyas Əhmədov, Rada Nəsibova, Vüsal Mustafayev, Xədicə Novruzlu ifa ediblər.

*Ə.PÜNHAN*



# Robot-aşpaz...

**Son zamanların texnologiya yeniliklərinə biri də əlavə olunub. Belə ki, müxtəlif yeməklərin hazırlanması videolarına baxaraq reseptləri öyrənən robot-aşpaz yaradılıb.**

Yeni ixtira Böyük Britaniyanın Kembric Universitetinin tədqiqatçıları tərəfindən ərsəyə gətirilib. Robot-aşpaz proqramı simulyasiya maşın öyrənmə metoduna əsaslanaraq insanın videoda nə etdiyinə baxır və sonra da gördüklərini təkrarlamağa çalışır.

Tədqiqat zamanı robota səkkiz sadə salatın reseptləri yüklənib. Daha sonra ona bu yeməklərin hazırlanması ilə bağlı kliplər göstərilib. Əl hərəkətləri və inqrediyentlərlə maşın resepti təyin edib və bişirmə mərhələlərini təkrarlamağa başlayıb. Mərhələnin sonunda “kiber-aşpaz”dan öz yeməyini yaratması tapşırılıb. Robot baxılan 16 videogörüntüdən 14-nü düzgün müəyyənləşdirib.

Beləliklə alimlər hesab edirlər ki, yeni texnologiya zamanla təkmilləşdikcə, “YouTube”dən yemək bişirməyi də mənimsəyə biləcək.

*Aytən NƏCƏFOVA, “Xalq qəzeti”*

Sağlamlıq guşəsi

# Təki beyin qocalmasın...

**Beynin qocalma prosesini tamamilə dayandırmaq mümkün olmasa da, onu ləngitməyə kömək edəcək elmi əsaslı tövsiyələr var:**



1. Magistral yol kənarı ilə getməyin, orda qaçmayın. Daimi fiziki fəaliyyət beyin üçün çox faydalıdır, çünki neyronlarda mitoxondriyaların (enerji “yarımstansiyaları”) sayını artırmağa kömək edir. Amma qaçış və gəzinti üçün park, çəmən, ara yolları seçin.

2. Qan təzyiqi üçün dərman qəbul edin. Bu dərmanlar yaşla əlaqədar intellektin azalmasını ləngidir və demensiyadan qoruyur.

3. Yaşıl salat və qırmızı bibər yeyin. Yaşıl yarpaqlı tərəvəzlər və parlaq rəngli tərəvəz və meyvələr flavonoidləri, bitki piqmentlərini ehtiva edir.

4. Qalxanabənzər vəzi müntəzəm olaraq yoxladın. Vəz kifayət qədər tiroksin hormonu istehsal etmirsə, bu, intellektin azalmasına və yaddaşın pozulmasına səbəb ola bilər.

*Z.BAYRAM, “Xalq qəzeti”*

Proqnoz

# Rayonlarda yenə leysan yağacaq, dolu düşəcək



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən iyunun 18-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Mülayim cənub küləyi əsəcək, gecəyə doğru mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 19-23°, gündüz 28-32° isti olacaq.

Atmosfer təzyiqi normadan aşağı 754 mm civə sütunu, nisbi rütubət gecə 70-80, günüdz 50-60 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 22-23° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 24-25° isti olacaq.

Azərbaycanın rayonlarında əsasən gündüzdən başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Mülayim şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 18-23°, gündüz 31-36°, dağlarda gecə 8-13°, gündüz 16-21° isti olacaq.

*Q.QASIMOV, “Xalq qəzeti”*

BİLDİRİŞ

“Boradigah çay-2” ASC-nin idarə heyətinin sədri bildirir ki, cəmiyyətin səhmdarlarının 2023-cü il iyulun 14-də keçirilməsi nəzərdə tutulan növbədənkənar ümumi yığıncağı təxirə salınır.

ALLAH RƏHMƏT ELƏSİN

Mingəçevirdən İlham İsmayılov Baş nazirin birinci müavini Yaqub Eyyubova bacısı

**AMALİYA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

“Xalq qəzeti”nin kollektivi iş yoldaşları Anar Məmmədova əzizi

**RƏCƏB MƏMMƏDOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5166
SİFARİŞ 1504
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00